

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəngəzur dəhlizi nə zaman açılacaq?




14

SƏS
№ 144 (7069)
13 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Müasir gənclik: sabaha və uğurlara hesablanan siyasət!



2

# Seçkilər Azərbaycanın qlobal nüfuzunu daha da gücləndirəcək



4

44 günlük Vətən Müharibəsində əldə olunan parlaq hərbi, siyasi, diplomatik qələbə regionda yeni və əhəmiyyətli reallıqlar yaratdı. Bu reallıqlara uyğun olaraq ölkəmizin bütün sahələrində dəyişiklərin aparılması, islahatların keçirilməsi, yeniliklərə nail olunması zərurətə çevrildi. Sentyabrın 1-də keçirilməsi planlaşdırılan növbədənkənar parlament seçkiləri reallıqlara uyğun vacib hesab olunan tədbirlərdəndir.

## Su qiyaməti: bizi nə gözləyir?



13

## Məzlum obrazının sonu



7

## Şişönü xəstəliklərin diaqnostikası sığorta zərfinə əlavə edildi



9

## Yaxın Şərqdə müharibə kimə lazımdır?



6

## Bu futbolçu "Barselona"dan ayrıldığını açıqladı



16

# Müasir gənclik: sabaha və uğurlara hesablanan siyasət!





*Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti Prezident Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir*



***Müasir Azərbaycan gəncliyi Vətənimizin işıqlı sabahıdır. Əlbəttə ki, müasir gəncliyin yüksək dünyagörüşlü, vətənpərvər ruhlu, savadlı olması vacib məsələlərdəndir. Cəmiyyətin aparıcı təbəqəsi olan gənclər fiziki və mənəvi cəhətdən sağlam, dünyada gedən prosesləri qavrayan, müasir texnologiyalarla işləməyi bacaran, milli-mənəvi dəyərlərə malik gənclikdir.***

Ölkəmizdə gənclərin potensialının düzgün istiqamətlənməsinə yönələn tədbirlər dövlətin uzaqgörən siyasətinin göstəricisidir ki, dövlət gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunmasında Müzəffər Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və komandanlığı altında əldə olunan tarixi qələbəmizdə Azərbaycan gəncliyi öz rəşadətini, birliyini, vətənpərvərliyini göstərmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, rəşadətli və şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri gənclərimizin bitib-tükənməz vətənpərvərliyini, müasir dövrdə vətənimizə, dövlətimizə və xalqımıza layiq olan gözəl, dəyərli bir nəslin formalaşdığını bütün dünyaya nümayiş etdirdi.

### “BU İŞƏ BİZ HƏLƏ 70-Cİ İLDƏN BAŞLAMIŞDIQ”

Ömrünün əsas hissəsini xalqa xidmətdə keçirən Ulu Öndər Heydər Əliyev kimi bir Şəxsiyyət Azərbaycanın sabahını gənclərin fəaliyyətində, inkişafında gördü və ölkəni inkişaf etmiş dünya dövlətləri sırasına çıxması üçün mütləq gəncliyin enerjisindən, yaradıcılıq əzmindən istifadə etməyi böyük uzaqgörənliklə tövsiyə edirdi. Hələ Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-80-ci illərdə Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək istiqamətində məqsədyönlü gənclər siyasətini həyata keçirirdi. Minlərlə gənc o illərdə güzəştli şərtlərlə Sovet İttifaqının ən mötəbər təhsil ocaqlarına göndərilirdi. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi sovet dövründə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açıldı, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alaraq, müasir ixtisaslara yiyələndi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradıldı. Ulu Öndər çıxışlarının birində bildirmişdi ki, bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır: "Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm". Qeyd etdiyimiz kimi, hələ sovet hakimiyyəti illərində Ümummilli Lider yüzlərlə Azərbaycan gəncini ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmış və həmin şəxslərin böyük bir qismi müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edirlər. Onu da qeyd edək ki, Azərbaycanda ötən əsrin 70-ci illərində hərbi məktəb yaradıldı. Naxçıvanski adına hərbi məktəbin yaranması bu gün Azərbaycanın nizami ordusunun gücləndirməsinə xidmət edir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən ötən yüzilliyin 70-80-ci illərində qoyulmuş gənclər siyasətinin məntiqi davamı müstəqillik dövründə daha yüksək səviyyədə özünü göstərdi.

Belə ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Ulu Öndər Heydər Əliyevin "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir" fikri gəncləri Azərbaycanın uğurlu gələcəyi naminə səfərbər edir.

Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə Fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu Öndərin gənclərlə çox saylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Hələ 1995-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. 2 fevral - Azərbaycan Gəncləri Günü elan edildi. 1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan "Dövlət Gənclər Siyasəti haqqında" Fərman gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə etmiş oldu.

1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" kimi dövlət sənədləri bu baxımdan təqdirəlayiqdir. Əlbəttə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi.

Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti dövlət başçısı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

*Ardı Səh. 3*

# Müasir gənclik: sabaha və uğurlara hesablanan siyasət!








Əvvəli-Səh-2

### DÜNYANIN 33 ÖLKƏSİNİN 544 ALİ TƏHSİL MÜƏSSİSƏSİNDƏ TƏHSİL ALMAQ İMKANI

Dövlət başçısının gənclərin xaricdə təhsil almalarına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar açmış oldu. Dövlət Proqramı çərçivəsində gənclərə dünyanın 33 ölkəsinin 544 ali təhsil müəssisəsində təhsil almaq imkanı verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycan gəncliyinin savadına, bacarığına, gələcəyinə böyük inam ifadə edərək bildirib ki, hər bir insanın gücü, əlbəttə ki, onun biliyindən asılıdır: "Ona görə Mən əminəm, gənclərimiz bunu yaxşı başa düşürlər ki, yaxşı bilik almaq, yaxşı savad almaq və istənilən sahədə peşəkar olmaq hər bir gəncin, hər bir insanın həyatda yaxşı yer tutmasına gətirib çıxaracaqdır".

İctimai-siyasi proseslərdə fəal iştirak edən Azərbaycan gəncliyi müstəqil dövlətçilik ənənələrini yüksək tutur. Dövlət başçısı İlham Əliyevin 2011-ci il 6 aprel tarixli "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı haqqında" Sərəncamı gənclər siyasətinin davamıdır. Sərəncamın əsasında gənclər siyasəti daha da inkişaf etdirilərək, gənclərin müxtəlif sahələrdə fəal iştirakına şərait yaratmış oldu.

Gənclərə olan diqqət və gənclər siyasətinin, davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti bir addım oldu. Ölkə başçısının "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncamı isə Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq kimi məqsədi daşımış oldu. Gənclərə ayrılan bu diqqətin və qayğının nəticəsidir ki, Azərbaycan gəncləri bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Bildiyimiz kimi, dövlət başçımız "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Sənədin əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Dövlət Proqramı bu sahədə mövcud olan beynəlxalq təcrübə və meyillər nəzərə alınaraq hazırlanmışdır. Dövlət Proqramında bu sahədə müşahidə edilən qlobal trendlər və onların ölkə potensialına təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmiş, uzunmüddətli dövr üçün strateji baxış formalaşdırılmış, hədəf göstəriciləri və prioritet istiqamətlər, gözlənilən təsirlər, icra mexanizmləri təsbit edilmişdir. Prioritet istiqamətlər üzrə ixtisas sahələrinin müəyyən edilməsi, prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının müəyyən edilməsi, xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı qaydaların müəyyən edilməsi, Dövlət Proqramı məzunlarının məşğulluğunun təmin edilməsi imkanlarının yaradılması və s. Dövlət Proqramının əsas istiqamətlərini təşkil edir. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin edilir. Bundan başqa, Dövlət Proqramında məzunlarının məşğulluğunun təmin edilməsi və karyera inkişafının stimullaşdırılması mexanizmlərinin yaradılması da nəzərdə tutulur.

Dövlət Proqramıda Ali təhsilin beynəlmiləlləşməsi məsələsi də yer alır. Müasir dünyada bilik iqtisadiyyatı və innovasiya cəmiyyəti, davamlı və hərtərəfli inkişafın təmin edilməsi bütün dövlətlərin qarşısında duran vacib vəzifələrdəndir. Hazırda bir çox dövlətlər tərəfindən xaricdə peşəkar kadr hazırlığının xüsusi dövlət proqramları ilə həyata keçirilməsi siyasəti dəstəklənir.

Görülən işlərin davamı olaraq avqustun 12-də "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalayıb.Sərəncama əsasən, adında və 1-ci hissəsində "2022–2026-cı" sözləri "2022–2028-ci" sözləri ilə əvəz ediləcəkdir. Edilən dəyişikliklərə əsasən, "400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000" sözləri "500" rəqəmləri ilə, "və magistratura" sözləri "magistratura və doktorantura" sözləri ilə əvəz ediləcəkdir. "Ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisaslara üstünlük verilməsi Azərbaycan Respublikasında akademik potensialın gücləndirilməsini, elmi-texniki və intellektual potensialın artırılmasını, elmi yaradıcılığın inkişafını və elmi biliklərin yayılmasını təmin edəcəkdir."

### "GƏNCLƏR YAXŞI TƏHSİL ALMALI, ÇOX ÇALIŞMALI, PEŞƏLƏRİNƏ YAXŞI YİYƏLƏNMƏLİ, VƏTƏNPƏRVƏR OLMALIDIRLAR"

Azərbaycan gənclərinin xarici ölkələrdə təşkilatlanmaları da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da, beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. Bu təşkilatların istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Azərbaycan reallıqlarını dünyaya çatdıran, onun həqiqətlərinə göz yuman insanlara reallıqları təqdim edən, məhz elə gənclərdir. Gənc idmançılarımızın qələbələrini, gənc siyasətçilərimizin uğurlarını, gənc əsgərlərimizin qəhrəmancasına Vətən qarşısında xidmətlərini və digər sahələri də vurğulamaq yerinə düşər. Bir sıra müsabiqələrdə, yarışlarda Azərbaycan gənclərinin Avropa məkanını fəth etməsi, birincilik qazanaraq, Azərbaycan bayrağını dalğalandırması Azərbaycan gəncliyinin sağlam düşüncəsinin məntiqidir. Azərbaycan gəncliyi sürətli inkişafa meyllidir. Bu reallıqların əsasında dayanan dövlətin gənclər siyasəti, onlara maddi və mənəvi cəhətdən göstərdiyi qayğıdır. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında prespektivlər açmaqla yanaşı, onları stimullaşdırır. Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir.

Bütün bu uğur və nailiyyətlərin əsasında Azərbaycan gənclərinə yaradılan şərait dayanır. Bu gün həyata keçirilən siyasət, uğurlu iqtisadi islahatlar və iqtisadiyyatın inkişaf tempi müasir gənclərin düşüncələrinin formalaşmasına birbaşa təsirini göstərir. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə, Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycanın dövlət müstəqilliyinin əbədi və əzəli olmasını qorumaq və saxlamaq üçün gənclər yaxşı təhsil almalı, çox çalışmalı, peşələrinə yaxşı yiyələnməli, vətənpərvər olmalıdırlar. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti deməyə əsas verir ki, bu gün mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclər nəsli formalaşıb.

**_ZÜMRÜD BAYRAMOVA_**

# Seçkilər Azərbaycanın qlobal nüfuzunu daha da gücləndirəcək

***44 günlük Vətən Müharibəsində əldə olunan parlaq hərbi, siyasi, diplomatik qələbə regionda yeni və əhəmiyyətli reallıqlar yaratdı. Bu reallıqlara uyğun olaraq ölkəmizin bütün sahələrində dəyişiklərin aparılması, islahatların keçirilməsi, yeniliklərə nail olunması zərurətə çevrildi. Sentyabrın 1-də keçirilməsi planlaşdırılan növbədənkənar parlament seçkiləri reallıqlara uyğun vacib hesab olunan tədbirlərdəndir. Bunu zəruri edən hallardan biri də ondan ibarətdir ki, növbədənkənar parlament seçkiləri 30 ildən sonra ilk dəfə ölkəmizin bütün ərazilərində keçiriləcək.***



Bununla bağlı Mərkəzi Seçki Komissiyası lazım olan bütün işləri həyata keçirib. İşğaldan azad edilən ərazilərdə yeni seçki məntəqələri üçün binalar yaradılıb, komissiyalar formalaşıb. Şuşa, Xankəndi, Füzuli, Ağdam, Xocalı, Ağdərə şəhərlərində və Hadrut qəsəbəsində seçki məntəqələri təşkil edilib. Əgər 2023-cü il fevralın 7-də prezident seçkiləri zamanı işğaldan azad edilmiş ərazilərdə 44 seçki məntəqəsi fəaliyyət göstərmişdirsə, hazırda seçki məntəqələrinin sayı 55-ə çatdırılıb.

İşğaldan azad edilən ərazilərdə yaradılan yeni seçki məntəqələri hər cür texniki avadanlıqlarla, o cümlədən fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunublar. İnsanların rahatlığının təmin olunması üçün səsvermə kabinələri quraşdırılıb, məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Məntəqə seçki komissiyasının sədri, üzvlər və müşahidəçilər üçün məntələrdə yüksək şərait yaradılıb, seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər müəyyənləşdirilib. Parlament seçkiləri ilə yanaşı COP29 konfransına hazırlıq işlərinin aparılması Azərbaycanın möhtəşəm gücə və imkanlara malik döövlət olduğunu nümayiş etdirir. Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında dediyi kimi: “Bu il Azərbaycan önəmli siyasi prosesdən keçir. Həm Milli Məclisə seçkilər, həm də COP29 beynəlxalq tədbirinə ev sahibliyi etmək ölkəni diqqət mərkəzinə gətirir. Milli Məclisə seçkilərin Qarabağda da keçirilməsi qürurverici haldır”. Bilal Dündar qeyd edib ki, illərdir işğalda qalan, lakin 44 günlük Vətən müharibəsi və 23 saatlıq anti-terror əməliyyatı nəticəsində azad edilən Qarabağ torpaqlarında seçkilərin keçirilməsi tarixi anlar olacaq: “Çünki 30 il idi ki, bu torpaqlara azərbaycanlı ayağı dəymirdi. Lakin çətin günlər artıq arxada qalıb. Qardaş Azərbaycanın bu uğurlara yiyələnməsi, indiki məqama qədər yüksəlməsi, azad edilən ərazilərində seçkilər üçün münasib şəraiti yaratması hamımızı sevindirir. Qardaş Azərbaycanın uğuru, Türkiyənin uğurudur”. B. Dündar əlavə edib ki, 1 sentyabr seçkilərindən gözləntilər çoxdur: “Hesab edirik ki, layiqli namizədlər seçiləcək, şəffaflıq mühiti qorunacaq və Azərbaycan parlamentinin nüfuzu bundan da yüksək səviyyəyə qalxacaq”.

## Seçicilər Şuşada, Laçında və digər azad olunmuş ərazilərdə öz deputatlarını seçəcəklər

Politoloq İlqar Vəlizadə parlament seçkilərinin keçirilməsini tarixi hadisə adlandırıb. O, “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında bildirib ki, fevral ayında keçirilmiş prezident seçkiləri ilk dəfə idi ki, işğaldan azad olunmuş əraziləri də əhatə edirdi: “Bu, sanki müsbət bir ənənə halına alır. Çünki hazırda Milli Məclisə seçkilərlə bağlı proses də eyni əhvalda başlayıb. Seçicilər Şuşada, Laçında və digər azad olunmuş ərazilərdə öz deputatlarını seçəcəklər”.

Politoloq İlqar Vəlizadə onu da bildirib ki, deputatlığa namizədlərin ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə səs toplamaq imkanı qazanmaları tarixi hadisə sayılmalıdır: “Hətta ola bilər ki, bələdiyyə seçkiləri ilə bağlı da oxşar hadisələr baş versin. Bütün bunlar ondan xəbər verir ki, müharibədən sonra ölkəmizdə yeni siyasi vəziyyət formalaşıb. Nəinki ölkəmizdə, ümumilikdə regionda yeni reallıqlar yaranıb. Azad olunmuş ərazilərdə seçkilərlə bağlı hazırkı mühüm proseslərə nəinki mənəvi, siyasi-hüquqi aspektdə də baxmaq lazımdır. Bu, bütün ölkə ərazisində hakimiyyətin legitimliyini möhkəmləndirir. İndiki halda keçiriləcək Milli Məclis seçkilərinin əsas məqsədi yeni siyasi reallıqları təsdiqləmək, ölkəmizin, xalqımızın yeni siyasi mərhələyə keçidini təmin etməkdir”.

## Beynəlxalq təşkilatların diqqəti Azərbaycandadır

Seçkiyə hazırlıq və namizədlərin yüksək fəallıqla özlərinin təşviqatlarını aparmaları dünyanın böyük nüfuza malik beynəlxalq təşkilatlarınında diqqətini özünə cəlb edib. Hər gün dünyaca tanınmış agentliklər, qəzet və jurnallar, televiziyalar Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı müxtəlif məzmunlu məqalələr çap edir, reportajlara yayımlayırlar. “Növbədənkənar parlament seçkiləri ilə əlaqədar iki minə yaxın yerli və xarici müşahidəçi müraciət edib. Onların, demək olar ki, hamısı da müsbət cavab alıb”. Bunu jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov deyib. O bildirib ki, MSK-da qeydiyyatdan keçən müşahidəçilərin 1630-u yerlidir. “Xarici müşahidəçilərin sayı isə 70-ə yaxındır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının müşahidə missiyası artıq fəaliyyətə başlayıb.

İtaliya, Çexiya Parlamentlərinin, Litva Seyminin müşahidəçiləri artıq akkreditasiyadan keçiblər. Moldova Mərkəzi Seçki Komissiyasının nümayəndələri də seçkiləri müşahidə edəcək. Xarici müşahidəçilərin qeydiyyatı prosesi hazırda sürətlə davam edir”, - deyə o əlavə edib.

“Milli Məclisə seçkilərin keçirilməsi Azərbaycan xalqına ölkənin hər bir rayonunun yeni perspektivlərini göstərməyə imkan yaradacaq. Həmçinin, bu seçkilər Azərbaycanın regionda suverenliyini və milli maraqlarını qorumağı bacaran bir dövlət kimi nüfuzunu yeni səviyyəyə qaldıracaq. Ölkənin ərazi bütövlüyünün bərpasından sonra ilk parlament seçkilərinin işğaldan azad edilmiş ərazilərdə də təşkil edilməsi Azərbaycanın bölgədəki və beynəlxalq münasibətlərdəki mövqeyini daha da gücləndirəcək”. Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında israilli jurnalist, siyasi ekspert Mark Qorin deyib. O, parlament seçkilərinin regionda tarixi əhəmiyyət daşıdığını bildirib: “Azərbaycanın növbədənkənar parlament seçkiləri beynəlxalq medianın və müxtəlif yönümlü siyasi qüvvələrin diqqət mərkəzindədir. Belə ki, milli maraqlarını qorumağı bacaran Azərbaycanın regionda söz sahibi qismində dayanıqlı mövqeyi bu seçkilərə olan marağı daha da artırır. Vurğulamaq istərdim ki, seçkilər azad edilmiş rayonların sakinləri üçün mənəvi əhəmiyyət daşımaqla bərabər, həm də bu ərazilərin iqtsadi və mədəni inkişafının təməlini qoyacaq. Yeri gəlmişkən, Bakıda doğulmuş və bir vaxtlar Azərbaycanda seçkilərdə iştirak etmiş bir vətəndaş kimi, bu möhtəşəm hadisə münasibətilə Azərbaycan xalqınma öz təbriklərimi çatdırıram”.

## Parlament seçkilərində şəffaflıq mühiti qorunacaq

Beynəlxalq münasibətlər üzrə türkiyəli ekspert İsmail Cingöz isə “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Azərbaycan zəngin seçki təcrübəsinə malik olan ölkə olduğunu bildirib: “İndiyə qədər keçirilən referendumlarda, prezident, parlament və bələdiyyə seçkilərində beynəlxalq standartlara uyğun seçki təcrübəsi formalaşıb. Seçkilərin təməl prinsipi hər kəsin seçmək və seçilmək hüququnun təmin edilməsidir. Azərbaycan da bu təməl hüququ təmin edir. Seçkiöncəsi təşviqat kampaniyasında hər kəsə bərabər şərait yaradılır. Səsvermə prosesində də şəffaflıq təmin edilir. Beynəlxalq müşahidəçilərin Azərbaycandakı seçkilərlə bağlı hazırladıqları hesabatlarda bütün bunlar öz əksini tapır”. Türkiyəli mütəxəssis sentyabrın 1-də baş tutacaq parlament seçkilərinin tarixi hadisə olduğunu vurğulayıb: “Azərbaycan 44 günlük müharibə və anti-terror tədbirləri ilə ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Azərbaycan parlamentinə seçkilər ilk dəfə azad olunmuş ərazilərdə də keçiriləcək. İşğal dövründə Qarabağ və digər ərazilərdən qaçqın düşmüş vətəndaşlar seçkilərdə öz doğma yurdlarına səs verə bilmirdi, o cümlədən, bu ərazilərdən seçilən millət vəkilləri də başqa bölgələrdə fəaliyyət göstərirdi. Sentyabrın 1-də artıq yeni dövr başlayacaq. Səsvermə prosesi azad olunmuş ərazilərdə keçiriləcək və seçiləcək millət vəkilləri də fəaliyyətlərini yerində apara biləcəklər. Bu, Azərbaycan parlamentinin tarixində yeni mərhələ olacaq”.

Ceymstaun Fondunun İdarə Heyətinin üzvü Metyu Brayzanın seçkilərlə bağlı söylədiyi fikirlərdə maraqlıdır: “Ötən ilin sentyabr ayında Azərbaycan suverenliyini tam bərpa etdi. Sürətli və uğurlu tədbirlər həyata keçirməklə Azərbaycanın ərazi bütövlüyünə qarşı davamlı təhlükə yaradan amillər aradan qaldırdı. Sözsüz bu amil Azərbaycanda keçiriləcək parlament seçkilərinin də əhəmiyyətini çox yüksəltdi. Sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərin Azərbaycanın bütün ərazilərində baş tutacağını xatırladan beynəlxalq ekspert qeyd edib ki, seçkilər hər bir ölkənin demokratik inkişafı üçün vacibdir və bəzi hallarda regional təsirə malikdir.COP29 ərəfəsində seçkilərin keçirilməsi Azərbaycanın qlobal nüfuzunu daha da gücləndirəcək. Bu prosesi mən alqışlayıram”.

***İLHAM ƏLİYEV***



# Azərbaycan-Qazaxıstan strateji əməkdaşlığında yeni dövr

Azərbaycan və Qazaxıstan ikitərəfli münasibətlərinin təməl daşı enerji sahəsində əməkdaşlıq olsa da, son geosiyasi regional hadisələr hər iki ölkəni münasibətlərini genişləndirməyə və ənənəvi neft və qaza əsaslanan əməkdaşlıqdan kənarda yeni strateji məqsədlər qoymağa sövq edib. Azərbaycan və Qazaxıstan karbohidrogendən asılı daxili bazarların genişləndirilməsinə və diversifikasiyasına yönəlmiş oxşar iqtisadi baxışları və məqsədləri bölüşürlər. Hər iki ölkə ikitərəfli əməkdaşlıqda neft-qaz sektorundan kənd təsərrüfatı və ticarətə keçərək iqtisadi strategiyalarını genişləndirir.

*İki ölkə Orta Dəhlizinin əməliyyatlarını yerinə yetirmək üçün dəniz limanlarını və tranzit şəbəkələrini genişləndirmək imkanına malikdir*






Bakı və Astana bu fürsətdən istifadə edərək şaxələndirmə planlarını reallaşdırmaq, regional və beynəlxalq miqyasda daha çox nüfuz qazanmaq istəyirlər. Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (The Trans-Caspian International Transport Route - TİTR) Rusiya-Ukrayna münaqişəsi fonunda kifayət qədər diqqət və əhəmiyyət qazanmışdır. TITR Avropa və Çin arasında ənənəvi marşrutlara uyğun alternativ hesab olunur və Avropaya Mərkəzi Asiya və Qafqaz regionunun artan bazarlarına çıxışı təmin edir. Azərbaycan və Qazaxıstan da Orta Dəhlizin daşıdığı potensialdan xəbərdardır və eyni zamanda öz iqtisadiyyatlarını və regional əlaqələrini gücləndirmək üçün belə bir fürsətdən istifadə etməkdə maraqlıdırlar.

Azərbaycan və Qazaxıstan neft-qaz sənayesindən digər iqtisadi sektorlara fokuslanmağı təkcə daxili bazarların deyil, həm də daha geniş Xəzər regionunun iqtisadi təhlükəsizliyini gücləndirmək yolu kimi qəbul edirlər. Bu iki ölkə arasında çoxşaxəli ikitərəfli əlaqələr regional təsir və iqtisadi suverenliyin artmasına səbəb ola bilər. Azərbaycan-Qazaxıstan gücləndirilmiş tərəfdaşlıq Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əsas əlaqəni təmsil edir. Bu iki bölgə Sovet İttifaqının dağılmasından bəri çox ehtiyac duyulan regional əlaqəni saxlamaq üçün mübarizə aparır. Bununla belə, Ukraynadakı müharibənin fonunda artan ABŞ-Çin gərginliyi və Yaxın Şərqdə əhəmiyyətli geosiyasi dəyişikliklər Cənubi Qafqaz və Mərkəzi Asiya arasında əlaqənin artmasına kömək edir. Azərbaycan və Qazaxıstan regional əməkdaşlığın və məhsuldarlığın intensivləşdirilməsinə yönəlmiş fəal regional xarici siyasətin təşviqi və həyata keçirilməsinə gəldikdə iki aparıcı dövlət olaraq qalırlar.

## Azərbaycan-Qazaxıstan münasibətlərinin reallığı və perspektivləri

Enerji Azərbaycan və Qazaxıstan ikitərəfli əməkdaşlığının əsas açarı olsa da, son vaxtlar hər iki ölkədə qeyri-karbohidrogen əlaqələri daha çox diqqət çəkir. Bakı və Astana ikitərəfli əməkdaşlığı genişləndirmək və zənginləşdirmək üçün mövcud geosiyasi imkandan istifadə etməkdə maraqlıdırlar. Hər iki ölkə hələ də enerjini tərəfdaşlıqlarının dəyərli bünövrəsi hesab edir və neft-qaz ticarəti sahəsində əməkdaşlığı genişləndirməkdə davam edir. Hər iki ölkə tranzit enerji həcminin artırılması potensialını araşdırır.

2023-cü ildə Azərbaycanda dövlətə məxsus milli neft-qaz şirkəti olan SOCAR və Qazaxıstanın milli enerji şirkəti "KazMunayQaz" Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranzitinə imkan verən saziş imzalayıb. Hazırda fəaliyyət göstərməsə də, Qazaxıstan neftinin gələcəkdə əhəmiyyətli nəqli üçün Azərbaycan-Qazaxıstan diplomatik danışıqlarında Bakı-Supsa kəməri də nəzərdən keçirilir.

Bununla belə, Azərbaycan və Qazaxıstan neft-qaz sənayesindən yayınma və alternativ bərpa olunan enerji və yaşıl texnologiyaya üstünlük verən qlobal tendensiyaları izləmək istəyir. Belə bir meyli təmin etmək üçün hər iki ölkə öz iqtisadiyyatlarını daha əhatəli şəkildə diversifikasiya etməyə başlamalıdır. Bununla belə, karbohidrogen əsaslı iqtisadiyyatları əvəz etmək yaxın gələcəkdə mümkün olmaya bilər, çünki gəlirli sahələri, mövcud enerji bazarlarını və enerji istehsalı kanallarını yenidən konfiqurasiya etmək üçün əhəmiyyətli investisiya və maliyyə dəstəyinə ehtiyac var. Bundan əlavə, neft və qaz sənayesi, xüsusən də mövcud geosiyasi vəziyyəti və sanksiyaya məruz qalmış Rusiya enerji ixracını nəzərə alsaq, hər iki ölkəyə əhəmiyyətli təsir imkanları yaradır. Avropa alternativ enerji təchizatçılarına və idxal marşrutlarına ümid edir, eyni zamanda öz bərpa olunan enerji mənbələrini və yaşıl texnologiya həllərini inkişaf etdirir, bu proses öz çətinliklərini yaradır.

Uzunmüddətli rifah və iqtisadi artım naminə Azərbaycan və Qazaxıstan digər əsas iqtisadi sektorların və ikitərəfli iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində gələcək addımlar atmalıdır. Bakı və Astana rəqəmsal sahədə birgə layihələr hazırlamağa və həyata keçirməyə başlayıb. Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrində internet əlaqələrinin keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyan belə layihələrdən biri də Xəzər dənizinin dibi ilə fiber optik rabitə xətlərinin (FOCL) tikintisidir. Daha geniş Rəqəmsal İpək Yolu layihəsinin bir hissəsi olaraq, FOCL təşəbbüsü eyni zamanda Azərbaycan və Qazaxıstan arasında genişlənmiş ikitərəfli rəqəmsal əməkdaşlığa, eləcə də daha geniş regionda rəqəmsallaşmaya və əlaqəyə töhfə verir və iki ölkəni mühüm regional rəqəmsal mərkəzə çevirir.

Azərbaycan və Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq sahəsində də mühüm nailiyyətlər əldə ediblər, ikitərəfli ticarət dövriyyəsi 40% artaraq 500 milyon dollara çatıb. Bundan başqa, Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevin sözlərinə görə, iki ölkə qarşılıqlı ticarət və iqtisadi əməkdaşlığı inkişaf etdirən sazişləri həyata keçirsələr, ticarət dövriyyəsini 1 milyard dollara çatdıra bilərlər.

Bakı və Astana Orta Dəhliz boyu nəqliyyat-logistika infrastrukturunun gələcək inkişafına mühüm əhəmiyyət verirlər. Təşəbbüs dəyərlidir və hər iki ölkə üçün iqtisadi cəhətdən faydalıdır. Azərbaycan və Qazaxıstanda daxili bazarların inkişafı və şaxələndirilməsi ilə yanaşı, dəhliz fəallaşdıqca və fəaliyyətə başladıqca regional iqtisadi qarşılıqlı əlaqə və biznes çiçəklənir. Avropa liderləri Orta Dəhlizə böyük maraq göstərdilər, çünki bu, ənənəvi Şimal Marşrutuna çox ehtiyac duyulan alternativ marşrutu təmin edir. Azərbaycan və Qazaxıstan üçün Orta Dəhliz təkcə bir-biri ilə deyil, həm də iqtisadi artım və əməkdaşlıq üçün mühüm bazar kimi qəbul edilən Avropa ilə münasibətləri gücləndirmək üçün mühüm fürsətdir.

Baxmayaraq ki, Azərbaycan və Qazaxıstan arasında qeyri-enerji münasibətləri inkişaf etdirilməyə və sərmayə qoyulmasına dəyər olsa da, gələcəkdə belə əməkdaşlığın perspektivlərini qiymətləndirərkən bir neçə məsələyə diqqət yetirilməlidir. Əvvəla, hər iki ölkədə enerji əsaslı bazarların dəyişdirilməsinin yaxın gələcəkdə baş verməsi mümkün deyil. Neft və qaz sənayesi Azərbaycan-Qazaxıstan ikitərəfli münasibətlərində əsas amil olaraq qalacaq. Hər iki ölkə gəlirli neft və qaz hasilatından və mühüm enerji ixracatçıları və təchizatçıları olmanın geosiyasi üstünlüklərindən uzaqlaşmağa hələ hazır deyil.

Bununla belə, Azərbaycan və Qazaxıstan son zamanlar qeyri-karbohidrogenli ikitərəfli münasibətlərə daha ciddi sərmayə qoymağa başlayıblar. Nəqliyyat, İKT, kənd təsərrüfatı və ticarət kimi sektorlar hələ də hər iki ölkədə neft və qaz sənayesini əvəz edəcək, hətta bərabərləşdirəcək qədər inkişaf etməyib. Nəqliyyat sektorunda Azərbaycan və Qazaxıstan təkcə bu iki ölkə arasında deyil, həm də daha geniş regionlarda intensiv ticarət və biznes, o cümlədən qeyri-enerji məhsulları gətirəcək Orta Dəhlizin açılmasını yüksək qiymətləndiriblər. Bununla belə, bu marşrut hələ də logistika, təhlükəsizlik və infrastruktura əhəmiyyətli investisiya tələb edir. Şimal dəhlizində mövcud nəqliyyat qeyri-müəyyənlikləri ilə əlaqədar olaraq, Azərbaycan və Qazaxıstan Orta Dəhlizinin əməliyyatlarını yerinə yetirmək üçün dəniz limanlarını və tranzit şəbəkələrini genişləndirmək imkanına malikdir.

Dəniz limanının inkişafı da müəyyən məhdudiyyətlərə malikdir: Qazaxıstanın Aktau limanından keçən və Azərbaycanın Ələt/Bakı Limanına daxil olan Orta Dəhliz hissəsi effektiv daşımalara mane olan ciddi tıxac nöqtəsi hesab olunur və xeyli investisiya tələb edir. Həll hər iki limanın daşıma qabiliyyətinin yaxşılaşdırılmasını və yük gəmilərinin sayının artırılmasını tələb edir ki, bunu yaxın gələcəkdə həll etmək çətin ola bilər. Buna baxmayaraq, Orta Dəhlizə artan tələbat Azərbaycan və Qazaxıstan, eləcə də daha geniş Xəzər regionu arasında inkişafa və əlaqəyə üstünlük verir.

Azərbaycan və Qazaxıstan arasında inkişaf edən ikitərəfli əlaqələr iddialı birgə rəqəmsal layihələrin həyata keçirilməsində, yüksək səviyyəli rəsmi səfərlərin tez-tez həyata keçirilməsində və çoxsaylı anlaşma memorandumlarının imzalanmasında əks olunur. Bakı və Astana rəsmiləri ikitərəfli əməkdaşlığın, xüsusilə qeyri-enerji sahələrində əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstəriblər. Baxmayaraq ki, diversifikasiya və ənənəvi neft-qaz əməkdaşlığından uzaqlaşma hər iki ölkə üçün problemlər yarada bilər, Azərbaycan və Qazaxıstan belə bir iddialı planı həyata keçirməyə və strateji baxımdan uyğunlaşdırılmış ikitərəfli münasibətlər vasitəsilə mövqelərini möhkəmləndirməyə hazır olduqlarını nümayiş etdirdilər.

**V.VƏLİYEV**

***P.S. Məqalədə Qazaxıstan mənbələrindən də istifadə edilib.***

ANALİTİK

## Tehran Haniyyənin qətlinə cavab axtarır

Bütün hazırlıqlar İran-İsrail müharibəsinə doğru gedir. İsrail Müdafiə Qüvvələri (İDF) İrandan gələn təhdidlə əlaqədar öz hərbçilərinə ölkəyə qayıtmaq əmri verib. Bu barədə "Kan" dövlət televiziya və radio şirkəti məlumat yayıb. Kan vurğulayır ki, bundan əvvəl İsrail Müdafiə Qüvvələrinin sözçüsü Daniel Hagari İrandan ola biləcək hücuma görə qoşunların "yüksək hazırlıq səviyyəsində" olduğunu bildirib. İsrail kəşfiyyat xidmətləri İranın yaxın bir neçə gün ərzində İsraili vura biləcəyi barədə məlumatlar əldə edib. "İsrail kəşfiyyatının əldə etdiyi xəbərə görə, İran HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin öldürülməsinə cavab olaraq İsrailə birbaşa hücum etmək qərarına gəlib və bunu hətta avqustun 15-nə planlaşdırılan Qəzzada girovla bağlı danışıqlardan əvvəl də bir neçə gün ərzində edə bilər".

Bundan əlavə, Kanal 11-in hərbi müxbiri Roi Şaron bildirir ki, təhlükəsizlik sistemində İranın apreldə olduğundan daha güclü hücum edəcəyinə dair məlumatlar var. Şaron deyib ki, həftənin sonunda İranın deyilənlərə "soyuq" davranışı illüziyadır. O, müdafiə naziri Yoav Qalantin "İran keçmişdəkindən fərqli hücum etmək qərarına gəlsə, apreldəkindən fərqli hücum edəcəyik" sözlərini xatırladıb. Şaron İranın daha "həssas hədəfləri" vura biləcəyindən söhbət açıb. Belə bir hücumun nə vaxt baş verəcəyi sualı açıq qalır. Nəhayət, ABŞ Yaxın Şərqə "USS Georgia" nüvə sualtı qayığını və "Abraham Linkoln" təyyarədaşıyan gəmisini göndərib. Müvafiq əmri avqustun 11-də ABŞ-ın müdafiə naziri Lloyd Ostin verib. Bu barədə Ostin ilə israilli həmkarı Yoav Qalant arasında telefon danışığının nəticələri barədə danışan departamentin sözçüsü Pat Rayder məlumat verib.

Onun qeyd etdiyi kimi, Pentaqonun rəhbəri ABŞ-ın İsraili qorumaq üçün bütün mümkün addımları atmağa sadiqliyini təsdiqləyib. Ostin gərginliyin artması fonunda Vaşinqtonun regionda hərbi mövcudluğunun güclənməsini də qeyd edib. Xüsusilə, o, F-35C qırıcıları ilə təchiz edilmiş USS Abraham Linkoln aviadaşıyıcısının zərbə qrupunun təcili şəkildə İran körfəzində mövqelənəcəyindən danışıb. Gəmilər qrupuna USS Georgia idarə olunan raket sualtı qayığı da qoşulacaq. Ostin və Qalant İsrailin Qəzzadakı əməliyyat-



larını, atəşkəs və girovların azad edilməsi səylərini müzakirə ediblər. Mövzulara İran, Livan Hizbullahı və regiondakı digər qrupların təcavüzünün qarşısının alınması da daxildir. Gördüyümüz kimi, hər şey böyük bir İran-İsrail müharibəsinə doğru gedir.

### Yeri gəlmişkən

Ermənistan İsrail mətbuatının "Azərbaycan və Gürcüstandakı hərbi qulluqçularının dərhal İsrailə dönmələrini" tələb etməsindən "isti-isti" istifadə etmək qərarına gəlib. Azərbaycan və Gürcüstan ərazilərində İsrailin guya hərbi bazalarının olmasını doğru xəbər kimi təqdim edən ermənilər bundan öz maraqları üçün istifadə etməyə çalışıblar. Hətta İranın Azərbaycana zərbə endirəcəyi xəbərini tələm-tələsik dərc etməklə, artıq İranla Azərbaycanın düşmənə çevrildiyi tiraşlamaqdadırlar. Bunu hətta, özləri üçün qələbə adlandırırlar. Yəni, baxmayaraq ki, İranda azərbaycanlı prezident seçilib, amma maraqlar heç də milliləşməyib, münasibətlər əvvəlkindən də artıq pis ola bilər. Təkcə ona görə yox ki, İsrail Azərbaycanı 44 günlük müharibədə hər cür silahlar tədarük edən dövlətdir.



# Yaxın Şərqdə müharibə kimə lazımdır?



Ona görə ki, İsrail ordu komandanlığının "bütün hərbçilər gedi dönsün" əmri guya sübut edir ki, Azərbaycan ərazisində İsrailin hərbi bazası var. Əlbəttə, rəsmi Bakı öz ərazisində İsrail hərbi obyektlərinin olmasını inkar edib və indi də inkar edir.



Ermənilər Britaniyanın "The Telegraph" nəşrində İran prezidentinin köməkçisindən sitat gətirilən məqaləni xatırladırlar. Həmin yazıda İran prezidentinin köməkçisinin Azərbaycanda İsraillə əlaqəli hansısa yeri hədəf almaq barədə qeydlərdən söhbət gedir. Əlbəttə, ermənilərin sevinməsinə əsas verən heç bir fakt yoxdur. Bundan əvvəl ABŞ, Fransa, Niderland və s. ölkələr öz vətəndaşlarına Ermənistana getməməyi tövsiyyə etmişdilər. Bu da səbəbsiz deyildi, ermənilər dövlət çevrilişinə hazırlaşırdılar, revanşistlər müharibədən dəm vururdular. Azərbaycana gəlincə, İsrailin ölkəmizin ərazisində hərbi bazasının olmadığını hər kəs, o cümlədən İran da bilir. Azərbaycan da o ölkələrdən deyil ki, qonşusuna, soydaşlarının yaşadığı ölkəyə qarşı xəyanət etsin. Bəli, İsraillə Azərbaycan arasında əlaqələrin diapozonu çox genişdir, iqtisadi, siyasi və hətta hərbi sahədə uğurlu əməkdaşlığımız var. Amma bu əməkdaşlıq üçüncü ölkəyə, o cümlədən milyonlarla soydaşımızın yaşadığı İrana qarşı deyil.

Dünya Yaxın Şərqdə İsraillə İran arasında yeni genişmiqyaslı müharibə ərəfəsində donub qalıb. Media gərginliyin artmasının qarşısını almaq üçün hər iki tərəfin çağırışları ilə bağlı xəbərlərlə doludur. Təhlükənin mənbəyi, bir qayda olaraq, Tehran göstərilir.

Amma faktlara nəzər salsaq, vəziyyət bir az başqa prizmadan görünür. Əvvəla, eskalasiyanın görünən səbəbləri olmadığı diqqəti cəlb edir. İsrail HƏMAS-ın hərbi nüvəsini məğlub edib. Radikallar istər-istəməz Misir, Qətər və digər vasitəçilərin köməyi ilə müəyyən güzəştlərə gediblər, tərəflər arasında danışıqlar aparıldı və Qəzza zolağı probleminin müvəqqəti də olsa, həllinin tapılacağına ümid etmək olar.

İyulun 19-da isə İsrail qəfildən danışıqları dayandırdı və əlavə şərtlərin formalaşdırılmasının zəruriliyini izah edib. Belə bir nəticəyə gəlmək olar ki, Təl-Əviv mövqeyini sərtləşdirməyə qərar verib, çünki İsrail hərbçiləri danışıqlar olmadan öz məqsədlərinə çata biləcəyini hiss edirdilər. İyulun 23-də baş nazir Benyamin Netanyahu Vaşinqtona səfər edib və burada konqresmenlərlə və Amerikanı "dizayn edənlər", yəni qərar qəbul edənlərlə danışıqlar aparıb. Baxmayaraq ki, indi Ağ Evdə kimin qərarlar qəbul etdiyini başa düşmək çətindir. Amma aydındır ki, indi hər şey təkcə onlardan asılı deyil. Biz buna öyrəşmişik ki, Vaşinqtonun İsrailin istənilən hərəkətini dəstəkləməsi qeyd-şərtsizdir. Bu, Mərkəzi Kəşfiyyat İdarəsi, ABŞ Müdafiə Nazirliyi və Energetika Nazirliyinin müqavimətini qıraraq, Yaxın Şərq münaqişəsində İsrailə arxalanan Harri Trumenin dövründən belədir.

Lakin 2024-cü il Amerikası Trumanın dövründə olduğu kimi deyil. İsrail baş nazirinin səfəri çoxsaylı etiraz aksiyaları ilə müşayiət olunub. Onun ABŞ Konqresindəki çıxışı Nümayəndələr Palatasının və Senatın demokrat üzvlərinin təxminən yarısı tərəfindən boykot edilib. Konqresmen Raşida Tlaib Netanyahunun çıxışı zamanı "Müharibə cinayətkarı" yazılmış lövhə tutub. Təbii ki, bütün bunlar ABŞ və İsrail liderləri arasında aparılan danışıqlarda müzakirə olunmaya bilməzdi. Bu danışıqların təfərrüatları açıqlanmasa da, həm Tel-Əvivin, həm də Vaşinqtonun hərəkətlərində ciddi vurğu dəyişikliyi müşahidə oluna bilər. Formal olaraq İsrail-Fələstin münaqişəsi onların siyasətinin mərkəzində qalsa da, indi ABŞ siyasi elitasının HƏMAS-a qarşı ehtirasları alovlandırmaq deyil, Qəzzadakı münaqişədən İran probleminin həlli üçün bəhanə kimi istifadə etməsi daha vacibdir.

İran bir milyon yarım nəfərlik orduya, müasir silahlı qüvvələrə malikdir və ÇXR ilə hərbi-texniki əməkdaşlığı fəal şəkildə inkişaf etdirir, oradan döyüş təyyarələri, gəmi əleyhinə raketlər, hərbi nəqliyyat təyyarələri, artilleriya qurğuları, tanklar, eləcə də dəyəri 4 milyard dollardan çox olan bir sıra texnologiyalar Tehran tərəfindən idarə olunur. Lakin Vaşinqtonu və daha çox Təl-Əvivi narahat edən ən mühüm məsələ İranın nüvə silahı əldə etməsi ehtimalıdır. 2015-ci ildə altı dövlət, o cümlədən ABŞ, İranın nüvə problemi ilə bağlı Birgə Hərtərəfli Fəaliyyət Planını (JCPOA). Lakin 2018-ci ildə ABŞ İranı öz öhdəliklərindən faktiki olaraq azad edən sazişdə iştirakını dayandırıb. Sual yaranır ki, Vaşinqton və Təl-Əviv Qəzza zolağı ətrafında vəziyyətin gərginləşməsindən İranın nüvə problemini güc yolu ilə həll etmək üçün - məsələn, İranın Natanzdakı nüvə tədqiqat mərkəzinə zərbə endirməklə istifadə etmək niyyətindədirmi? İsrailin Tehrana qarşı təxribatçı hərəkətlərini başqa necə izah edə bilərik? Netanyahu hələ ABŞ-da olarkən HƏMAS lideri İsmayıl Haniyə artıq Tehranda öldürülmüşdü. İsrail nazirlərindən biri, rəhbərliyin sərt göstərişlərinə zidd olaraq, Haniyənin öldürülməsinin "dünyanı bu çirkabdan təmizləmək üçün doğru yol" olduğunu bəyan edib.

HƏMAS liderinin öldürülməsi Qəzza ərazisində törədilsəydi, bu, çətin ki, güclü beynəlxalq rezonans doğurardı. Amma bu halda İran birbaşa olaraq münaqişəyə sürükləndi. Xarici dövlətlər onun ərazisində özbaşınalıqlar edəndə Tehran təbii ki, səssiz qala bilməz. İran lideri İsrailə qarşı "qisas zərbəsi" veriləcəyini açıqlayıb. Və dərhal bölgədə Amerika hərbi qüvvələri gücləndirilib, avia-



daşıyıcı Abraham Linkoln, əlavə kreyserlər və ballistik raketləri vura bilən esminesləр göndərilib. Avqustun 4-də Amerika Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının komandanı general Maykl Kurilla oraya gəlib. Rəsmi bəhanə "İranın İsrailə mümkün hücumuna hazırlıq"dır. Vəziyyətin gərginləşməsinə səbəb kimi Haniyyənin öldürülməsi ilə bağlı bir kəlmə də deyilmir.

Eyni zamanda, hadisələrin miqyasına və orada iştirak etmək üçün ayrılmış silahlı qüvvələrə diqqəti cəlb edilməyə bilməz. Bu, yeni regional münaqişəyə və onsuz da çətin olan beynəlxalq vəziyyətin ciddi şəkildə gərginləşməsinə səbəb olacaqmı? Amma bu vəziyyətdə hər şey təkcə Vaşinqton və Təl-Əvivdən asılı deyil. "Cavab zərbəsi" ilə bağlı qərar Tehranda qəbul edilib. İran rəhbərliyi isə artıq keçmiş prezident Mahmud Əhmədinejadın İsraili yer üzündən silməklə bağlı ehtiyatsız hədələri dövründə olduğu kimi deyil. İranlılar başa düşürlər ki, indi onlara ABŞ-la genişmiqyaslı müharibə lazım deyil, çünki bu, artan İran hərbi-sənaye kompleksinə qabaqlayıcı zərbə ilə nəticələnəcək və onu on il geriyə atacaq.

**V.VƏLİYEV**

GÜNÜN SUALI

# Məzlum obrazının sonu



***Bu günlərdə ölkənin informasiya məkanında, saysız-hesabsız müxtəlif internet resurslarında, xüsusilə sərhədsiz virtual məkanda baş verən "azğınlığın" mənbəyi və səbəbləri hər kəs üçün çox açıq şəkildə bəllidir. Bəzilərinin daha çox isterikaya bənzəyən canfəşanlığını sadəcə qərəzli sifarişlərin təzahürü olduğunu anlamaq da çətin deyil. Bu mənada seçki ətrafında yaranan süni ajiotaj hətta müəyyən mənada anlaşılandır. Məqsəd siyasi qalmaqal xarakterli təxribat məzmunlu situasiyaların yaradılmasıdır. Xatırladaq ki, məhz həmin bu situasiyalardan daha sonra xarici qüvvələr tərəfindən Azərbaycanın tənqid olunması və qərəzli bəyanatlarının verilməsi üçün istifadə olunur. Seçkilər ətrafında yaranan süni ajiotaj mühitinin təyinatı məhz budur, burada demokratiyadan və ya ədalət uğrunda hər-hansı bir mübarizədən söhbət belə gedə bilməz.***

Bizim bu zavallı radikalların və onların bayraqtutanı hesab olunan Kərimlinin fəaliyyət strategiyasına diqqət yetirəndə, nədənsə rəsmi İrəvanın 100 ildən artıq apardığı təbliğat strategiyasına bənzərliyin şahidi olursan. Belə ki, rəsmi İrəvan ötən dövr ərzində beynəlxalq münasibətlər sistemində böyük "təbliğat maşını" vasitəsilə dünyada davamlı olaraq öz "məzlum" obrazını təşviq edib. Etiraf etməliyik ki, bu strategiya Ermənistana müxtəlif dövrlər ərzində heç də az dividend qazandırmayıb. Müharibə təhdidi ilə bağlı beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana qarşı istifadə olunan təzyiq siyasətinin əsas səbəblərindən biri elə məhz rəsmi İrəvanın sözügedən "məzlum" siyasətidir.

Qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan xalqının tarixi Qələbəsi və ərazi bütövlüyünün bərpa olunması kimi baş verən mühüm hadisələr nəticəsində Ermənistanın "məzlum" strategiyasına da son qoyuldu. Bəli, Fransa kimi ölkələr sözügedən obrazın qalıqları üzərindən hələ də müəyyən manipulyasiyalar aparmaq cəhdlərini etməkdədirlər. Ancaq onların qarşısında artıq müstəqilliyinin ilk illərini yaşayan kövrək Azərbaycan dayanmayıb. Qalib Azərbaycan öz Qələbəsini bütün müstəvilərdə təmin edib və bu gün Azərbaycanın inkişafı artıq bütün regionun təminatlı inkişafı deməkdir. Qeyd olunan məntiqdən çıxış edərək deyə bilərik ki, Azərbaycanın qarşısını almaq regionun inkişafının qarşısını almaq deməkdir.

Qayıdaq bilavasitə "məzlum" obrazının bəzi siyasi xüsusiyyətlərinə. Elmi və mürəkkəb mülahizələrdən uzaq dayanaraq rəsmi İrəvanın sözügedən siyasətinin məzmun və təyinatını növbəti şərti tezislərdə görə bilərik: "Azərbaycan böyük və güclüdür, Ermənistan isə kiçik və daim təzyiqlər altında yaşayır", "tarixən ermənilər regionda sıxışdırılib", "erməni xalqı soyqırımı ilə üzləşib", "Böyük Azərbaycan xalqı kiçik erməni xalqı ilə ədalətsiz mübarizə aparır" və s. Rəsmi İrəvan bu cür saxta və həqiqətdən uzaq olan məzmundakı tezislər vasitəsilə və onlara dəstək göstərən xarici havadarlarının köməyi ilə uzun illər ərzində beynəlxalq münasibətlər sistemində müxtəlif manipulyasiyalar apararaq böyük siyasi dividendlər qazanıblar. Təkrar edək, məhz ədalətli olaraq gücün tətbiqi nəticəsində Azərbaycan xalqı öz Qələbəsinə nail oldu və bununla da ermənilərin "məzlum" strategiyasına son qoydu.

İndi xalis demaqogiyanın və radikal təfəkkürün parlaq təcəssümü hesab oluna biləcək Ə.Kərimlinin siyasi fəaliyyətinin strategiyasına diqqət yetirək. Onun demək olar ki, 30 ildən artıq davam edən siyasi fəaliyyətinin kökündə eyniliklə rəsmi İrəvanın Azərbaycana qarşı istifadə etdiyi siyasətinin bünövrəsində olan tezislər dayanıb: "Azərbaycan iqtidarı böyük inzibati resurslara malikdir və bizimlə aparılan mübarizə ədalətsizdir", "mən 30 ildən artıq müddət ərzində sıxışdırılıram, təzyiqlər altındayam və hüquqlarım pozulur" və s. Razılaşın ki, paralellər kifayət qədər realdır və yazıda aparılan bənzətmələr heç də əsassız deyil.

Bir insanın hüquqlar necə pozula bilər ki, 30 ildən artıq sərt müxalifətçilik ilə məşğul ola bilsin? Xarici qrantların tam inhisarçısı olaraq hansı məhrumiyyətlərdən danışırsan? Əgər daima sosial şəbəkələrdəki statuslarının "qəhrəmanına" çevrilə bilirsənsə, hansı məhdudiyyətlərdən söhbət gedir? Necə olur ki, həm internetə çıxışının olmadığın deyir və həm də xarici qüvvələrin əlində oyuncaq olan YouTube kanallarına davamlı olaraq müsahibələr verə bilirsən? Əlbəttə ki, bu cür sualların siyahısı davam oluna bilər. Əslində yuxarıda səslənən bir neçə sual belə Ə.Kərimlinin "məzlum" strategiyasınını ifşa etməyə və obyektiv həqiqətin nədən ibarət olduğunu anlamağa kifayət edir.

Mövcud konteksti inkişaf etdirərək deyə bilərik ki, "kərimlilərin" sahib olduqları radikal təfəkkür apriori olaraq yalnız sərt avtoritar yanaşmanın məhsulu ola bilər. Bunu sübut edən bir nümunəni göstərək. Sosial şəbəkələrdə öz əksini tapmış əlamətdar tezis xarakterli statusunun məzmununa diqqət yetirin: "bu gün Əli Kərimlidən başqa ikinci bir müxalifət lideri yoxdur...". Xüsusi olaraq onu da vurğulayaq ki, bu cür statusları bayraqtutanın ən yaxın çevrəsi tirajlayır. İnkarçılıq bilavasitə radikal düşüncənin təzühürüdür. Yeri gəlmişkən, "boykot" siyasəti də müəyyən mənada inkarçılığın təzahürü deməkdir.

Daha aydın anlaşılması üçün fikirlərimizi başqa sözlərlə ifadə etməli olsaq bu nəticəyə gələrik: öz pozucu və radikal fəaliyyətində belə özünü mütləq "lider" hesab edən və bu məsələdə təndidə dözümsüzlük nümayiş etdirən təfəkkürün mahiyyəti yalnız və yalnız totalitar məzmunda ola bilər. Əlbəttə ki, cəmiyyəti ixtilafa yönəldən və əldə olunmuş uğurlara hətta kiçik təhdid yarada biləcək bütün hallara son qoyulmalıdır. Bütün beynəlxalq təzyiq və manipulyasiyalara rəğmən şəxsi ambisiyalarının təmin olunması naminə bəzilərinin siyasi şıltaqlığına zamanında müvafiq reaksiya verilməlidir. Rəsmi İrəvanın "məzlum" obrazına son qoymuş Qələbəmiz qeyd olunan təsbitin sübutudur. Söhbət milli maraqların təmin olunması və onların qorunmasından gedirsə, heç yerdə, heç bir zaman heç bir siyasi oyunbazlıq, xüsusilə də demaqogiya bağışlanıla bilməz.

***Asif Adil***

# Marsı yaşayış üçün uyğunlaşdırmaq yolunda inqilabi kəşf

Astronomiya elmi inkişaf etdikcə insanlar digər planetdə yaşamaq haqqında düşünüblər. Bu dönəmdə isə Yer kürəsi kapitalist sənayenin tələblərinə və durmadan çoxalan insan sayına dözə bilməyəcəyi üçün alimlər yeni planetlər axtarışına çıxıblar. Onlar yeni planetlər axtarmaqla yanaşı, digər planetləri də yaşanacaq hala gətirməyə çalışırlar. Alimlər Mars planetini isitmək və bununla da onu yaşayış üçün əlverişli etmək üçün Marsın atmosferinə xüsusi toz səpmək istəyirlər. Bu təməlqoyma ideyası kimi Marsı daha çox Yerə bənzədən və bəlkə də insanların yaşadığı ikinci bir Yer etmək üçün təklif edilən bir sıra inqilabi üsullardan biridir.



Hal-hazırda Marsın səthi yaşayış üçün yararsızdır. Hədsiz soyuq, ölümcül ultrabənövşəyi şüalar, yararsız və quru torpaqlar, seyrək oksigen bunun əsas göstəricisidir. Digər tərəfdən Marsda nəyinsə yaşadığına dair heç bir dəlil yoxdur. Buna baxmayaraq yeni metodun arxasında duran elm adamları bunun əvvəlki planlardan ən azı 5000 dəfə daha səmərəli olduğunu söyləyirlər.

Bu üsula görə materialların planetimizdən daşınması əvəzinə, Marsda asanlıqla əldə edilə bilən resurslardan istifadə edilir. Eyni zamanda tədqiqatçılar, bu üsulun həyata keçirilməsi üçün onilliklər lazım olduğunu deyirlər. Beləliklə, bu üsul digər təklifləri gündəmdən salır. Çünki onların həyata keçirilməsi üçün çox böyük resurslar və iş gücü tələb olunur.

Marsın yerləşdirilməsi ilə bağlı ilk təkliflər 1970-ci illərin əvvəllərində başlayıb. Buna baxmayaraq son 50 ildə Marsdakı iqlim şərtlərini Yerə bənzətmək üçün tədqiqatçıların təklif etdiyi heç bir üsul həyata keçirilməyib. Tədqiqatçılar iddia edirlər ki, onların yeni təklifi daha çox əlverişlidir, çünki Marsı maye su saxlayacaq qədər istiləşdirmək nisbətən daha bəsit ola bilər. Bu üsul, Yer planetində də baş verən və nəticələrindən əziyyət çəkdiyimiz istixana effektinə bənzəyir. Digər təkliflər isə qazların Marsa daşınması və ya planetin özündə kompleks mədən işlərinin aparılmasından ibarətdir. Yeni təklifə görə Marsda kifayət qədər çox olan dəmir və alüminiumu toplayıb onları qısa çubuqlar halına salmaq lazımdır. Bu çubuqlar isə itən istiliyi özünə çəkəcək və günəş işığını səthə yayaraq istixana effekti yaradacaq.

Beləliklə, Mars planetini isitmək üçün milyonlarla ton metal lazımdır, lakin bu üsul Marsı qlobal istiləşdirmək üçün təklif olunan əvvəlki üsullardan 5000 dəfə daha münasibdir. Bütün bu amillər, layihənin mümkünlüyünü əhəmiyyətli dərəcədə artırır. Marsdakı havanı isitmək insanların Marsda yaşamasına kifayət etməyəcək. Lakin tədqiqatçılar düşünür ki, atmosferə oksigen əlavə edərək, ətraf mühiti insanların məskunlaşması üçün daha əlverişli hala gətirə biləcək mikrobların və daha sonra yeməli bitkilərin yetişdirilməsinə başlayaraq buna nail olmaq mümkündür.

***Zərdüşt***

# Eyni bal toplayan abituriyentlərdən hansına üstünlük verilir?

**Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisasları üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun bal əsasında aparılır. Dövlət İmtahan Mərkəzindən bildirilib ki, yekun balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə müvafiq ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:**

abituriyentin qəbul (cari ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi bal;

təhsil haqqında sənədə (attestata) tədris dili, ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;

riyaziyyat fənni üzrə imtahan balı;

Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.

Həmçinin qeyd olunub ki, ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri "məqbul"la qiymətləndirilən ixtisasları üzrə müsabiqə abituriyentin qəbul (cari ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır. Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

təhsil haqqında sənədə (attestata) tədris dili, ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;



riyaziyyat fənni üzrə imtahan balı;

Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.

Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.




# Sağlamlıq və rahatlığın məkanı – "Bizim həyət"




Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması məqsədi ilə istifadə edilməsi ölkəmizdə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsidir. Ölkə rəhbərliyinin ekoloji məsələlərə göstərdiyi diqqət sayəsində ətraf mühitin yaxşılaşdırılması istiqamətində son illərdə bir sıra layihələr həyata keçirilib, ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər görülüb. Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilib və bu gün də davam etdirilir. Belə ki, çirklənmiş torpaqların ekoloji vəziyyətinin sağlamlaşdırılması, neftlə çirklənmiş torpaqların, eləcə də müxtəlif maddələrlə çirklənmiş göl və gölməçələrin bərpası istiqamətində tədbirlər görülüb. İnsanların rahatlığı, firavanlığı, onların sosial rifahının yüksəlməsi məqsədi ilə ölkəmizdə davamlı olaraq tədbirlər həyata keçirilir. Bu insan amilinə olan diqqət və qayğıdır. Əlbəttə ki, bugünki dünyamızda insanların istirahəti, ekoloji cəhətdən sağlam mühitin yaradılması məqsədi ilə davamlı tədbirlər reallaşır.

Şəhərətrafı yaşıllıqların salınması insanların sosial həyatı və sağlamlığı üçün faydalı olmasını nəzər alaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi də uğurla davam etdirilir. "Bizim həyət" layihəsinin əsas məqsədi həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpasıdır. Bütün bunlarla yanaşı, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması da məqsəd olaraq daim diqqətdə saxlanılır. 2017-ci ildən Bakının abadlaşdırmaya ehtiyacı olan həyətləri, parkları və meydançaların bərpasına, yaxşılaşdırılmasına yönəlmiş layihələr təqdirəlayiqdir. Artıq Bakının bir sıra rayonlarında Nəsimi, Nərimanov, Xətai, Binəqədi kimi rayon ərazilərindəki bəzi məhəllələrdə bu layihə reallaşıb.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb. Belə ki, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin formalaşdırılması məqsədilə müxtəlif idman qurğuları, futbol meydançaları, şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları, velosiped yolu salınıb. Görülən işlər insanların rahat bir şəkildə istirahətlərinin, asudə vaxtlarının təşkilində əhəmiyyətlidir. Əminliklə qeyd edək ki, layihə çərçivəsində sakinlərin istək və maraqları nəzərə alınıb və yeni liftlər, işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq ağac əkilib və ərazidə yaşıllıq zolaqları salınıb.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən icra olunan "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 150-dən artıq ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, Azərbaycanın bir sıra bölgələrində də bu layihə reallaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində tədbirlər davam etdirilir. İnsanların sağlam təbii mühitdə və şəraitdə yaşaması naminə görülən səmərəli işlər təqdirəlayiqdir. Ətraf mühitin, suların təmiz, havamızın saf olması üçün bunu özümüzün vətəndaşlıq borcumuz olduğunu dərk etməliyik.

*Nəzakət ƏLƏDDİNQIZI*










# Şişönü xəstəliklərin diaqnostikası sığorta zərfinə əlavə edildi

***İcbari tibbi sığorta əhalinin sosial müdafiəsi forması olaraq, sığorta hadisəsi zamanı əhaliyə icbari tibbi sığortanın maliyyə mənbələri hesabına ilkin səhiyyə xidmətlərinin, təcili və təxirəsalınmaz tibbi yardımın, habelə sığorta olunanlara xidmətlər zərfində nəzərdə tutulmuş şərtlər çərçivəsində tibbi xidmətlərin göstərilməsinə təminat verən dövlətin hüquqi, iqtisadi və təşkilati tədbirlər məcmusudur.***

İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ







Xidmətlər Zərfi icbari tibbi sığortanın maliyyə mənbələri hesabına sığortaolunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin toplusudur. İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar, təcili və təxirəsalınmaz tibbi yardım, ilkin tibbi-sanitariya yardımı, ambulator xidmət, stasionar xidmət, funksional-diaqnostik və laborator müayinələr, fizioterapevtik xidmətlər, cərrahi əməliyyatlar, o cümlədən həyati vacib, dəyəri yüksək əməliyyatlardan yararlana bilir. İcbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin sayı 3315-dir.

Son dəyişikliyə görə icbari tibbi sığorta zərfinə orqanizmdə xərçəngə çevrilmə riski yüksək olan atipik hüceyrə dəyişiklikləri nəticəsində yaranan şişönü xəstəliklərin erkən diaqnostikası da əlavə edildi. Bu hüceyrələr, adətən, normal hüceyrələrin yerini alaraq onları zədələyir, sürətlə çoxalır və orqanizmin digər hissələrinə yayılır. Şişönü xəstəliklər müxtəlif orqan və toxumalarda meydana gələ bilər. Bu xəstəliklərin erkən mərhələdə aşkarlanması və müalicəsi gələcəkdə inkişaf edə biləcək xərçəng hallarının qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edir.

İcbari tibbi sığortanın Xidmətlər Zərfinə funksional diaqnostika, şüa diaqnostikası, laborator və endoskopik müayinələr daxildir. Bu müayinələr vasitəsilə xəstəliklərin dəqiq diaqnostikasını aparmaq, orqanların funksional vəziyyətini və daxili strukturlarını qiymətləndirmək, kimyəvi və fiziki prosesləri öyrənmək, o cümlədən daxili orqanları vizual olaraq müayinə etmək mümkündür. Şişönü xəstəliklərin diaqnostikasını dəqiq və etibarlı şəkildə aparmaq üçün isə bir neçə əsas metodlardan istifadə olunur. Bu metodların hər biri müəyyən xəstəliklərin aşkarlanmasında yüksək həssaslıq və dəqiqlik təmin edir.

Maqnit rezonans tomoqrafiya (MRT) bədənin daxili strukturlarını detallı şəkildə göstərir və bir çox hallarda şişönü dəyişikliklərin aşkarlanmasını təmin edir. Bu metod, xüsusilə yumşaq toxumaların görüntülənməsi üçün effektivdir.

Kompüter tomoqrafiyası (KT) skanerləri bədənin müxtəlif hissələrinin detallı görüntülərini təqdim etməklə şişlərin yerini və ölçüsünü müəyyənləşdirməyə imkan yaradır. Bu metod xüsusilə bərk toxumalarda və orqanlarda şişlərin aşkarlanması üçün istifadə olunur. Digər bir diaqnostik metod olan kolonoskopiya, kolorektal (yoğun və düz bağırsaq) xərçəngə çevrilmə potensialı yüksək olan şişönü lezyonların erkən diaqnostikasında geniş istifadə olunur. Bu prosedur zamanı həkim endoskop vasitəsilə kolonun daxili divarlarını yoxlayır. Şübhəli bölgələr tapıldıqda biopsiya nümunələri götürülür və laboratoriyada analiz olunur.

Qastroskopiya mədə və onikibarmaq bağırsaqda (duodenum) şişönü dəyişikliklərin diaqnozu üçün istifadə olunur. Bu metod mədə-bağırsaq traktının yuxarı hissəsinin görüntülənməsini təmin edir və şişlərin erkən aşkarlanmasına kömək edir. Kolposkopiya uşaqlıq boynu xərçəngi və xərçəngönü xəstəlikləri erkən mərhələdə müəyyən etmək üçün istifadə olunan yüksək dəqiqliyə malik ginekoloji müayinə metodudur. Bu müayinə prosesində kolposkop cihazı ilə uşaqlıq boynu optik olaraq incələnir. Şübhəli bölgələr aşkarlandığı halda isə həmin hissələrdən nümunələr götürülərək laborator analizlərə göndərilir.

Histeroskopiya qadın sağlamlığının qorunması və erkən diaqnostika üçün ən müasir metodlardan biridir. Bu prosedur zamanı histeroskop cihazı uşaqlıq boşluğuna daxil edilir və görüntü real vaxtda ekrana ötürülür. Bu sayədə uşaqlıq daxilindəki hər hansı patologiya çox asanlıqla müşahidə edilə bilir. Bu müayinə bir çox ginekoloji xəstəliklərlə yanaşı, uşaqlıq xərçənginin və şişönü xəstəliklərin aşkar edilməsində həyata keçirilən vacib müayinə metodudur.

Mammoqrafiya süd vəzilərinin və ətraf limfa düyünlərinin rentgen vasitəsilə müayinəsini təmin edən vacib bir diaqnostika üsuludur. Bu metod süd vəzilərindəki xərçəngönü xəstəlikləri erkən mərhələdə aşkar etməyə və vaxtında müalicəyə başlamaqla gələcəkdə həmin patoloji halların bədxassəli törəməyə keçməsinin qarşısını almağa imkan yaradır.

Şişönü lezyonlar adlanan xərçəngə çevrilmə potensialı yüksək atipik hüceyrə bölgələrindən götürülən toxuma nümunələrinin mikroskopik analizi diaqnostikada qızıl standart hesab edilir. Bu metod hüceyrələrin struktur vəziyyətini qiymətləndirməyə imkan verməklə dəqiq diaqnostikanı təmin edir.

Həmçinin, qanda xüsusi biomarkerlərin səviyyəsi müəyyən xəstəliklərin mövcudluğunu göstərə bilər. Bu testlər sırasından onkomarkerlərin qanda təyini bəzi şişönü xəstəliklərin erkən mərhələdə aşkarlanmasında istifadə olunur və xəstəliyin gedişatını izləməyə kömək edir. Pap smear testi isə qadınlarda uşaqlıq boynunda (serviks) şişönü xəstəliklərin aşkarlanmasında geniş istifadə olunur.

İcbari tibbi sığortanın tətbiqi xəstəliklərin erkən mərhələdə aşkarlanmasına, vətəndaşın vaxtında müalicəyə cəlb olunmasına və əhalinin ümumi sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlib. İcbari tibbi sığorta ilə qarşılanan tibbi xidmətlərdən istifadə etmək üçün TƏBİB-in tabeliyindəki istənilən dövlət tibb müəssisəsinə və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 elmi-tədqiqat institutuna şəxsiyyət vəsiqəsi ilə müraciət etmək kifayətdir.

Tibbi sığorta bir dövlətin öz vətəndaşına, onun sağlamlığına və rifahına göstərdiyi diqqət, qayğıdır. Məhz bu səbəbdən bu sahə bizim sosial həyatımızın ən vacib sahəsidir desək, yanılmarıq. İnsanın ən zəif anı xəstələndiyi və ya ailəsindən bir nəfərin xəstələnməsi anıdır. Bu zaman həm maddi, həm də mənəvi ehtiyaclarımızı ödəyən dövlət sığorta sistemi ilə vətəndaşın yanında olduğunu göstərir. Təmənnamız şiş xəstəliklərinin müalicəsi, şüa və kimyaterapiyanın, habelə əməliyyatların da sığorta zərfinə əlavə edilməsidir.

**_Lalə Mehralı_**

YENİLİK

# Meyvələr bizi zəhərləyir?

ARAŞDIRMA

***Xüsusən də yay aylarında uşaqlar və ya gələcək analarda ərik, badam, kal ərik, albalı, şaftalı və alma toxumlarının istehlakı zəhərlənməyə səbəb ola bilər. Bəs, buna səbəb nədir?***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bir çox meyvələrin toxumlarında olan son dərəcə zəhərli maddə olan "Amiqdalin" bağırsaqlarda əriyir və sianid birləşməsi olan "sianid"in yaranmasına səbəb olur. Çox sürətli zəhərli təsir göstərən bu maddə hətta ani uşaq ölümlərinə də səbəb ola bilər. Memorial Kayseri Xəstəxanası Uşaq Endokrinoloji Bölümündən həkim Səlim Kurtoğlu bəzi meyvə toxumlarının istehlakı nəticəsində yaranan sianid zəhərlənməsi ilə bağlı məlumat verib.

## Əriyin acı toxumları zəhərli ola bilər



Bəzi meyvələrin toxumlarında olan "amigdalin" adlı maddə bağırsaqlarda əriyir və son dərəcə zəhərli olan "sianid"in yaranmasına səbəb olur. Kimyəvi yollarla istehsal oluna bilən sianid birləşmələri təbiətdəki bəzi canlılar tərəfindən də müxtəlif yollarla istehsal edilə bilər. Həyati təhlükəsi olan sianid zəhərlənməsi ağır klinik təzahürlərlə baş verə və ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Uşaqlarda ani zəhərlənmə ilə bağlı xəstəliklərə səbəb ola biləcək bu vəziyyət, gələcək analar bunları istehlak etdikdə körpədə hidrosefaliya və mənfi böyrək inkişafına da yol açır. Bəzi ərik növlərinin hətta 5-25 acı toxumunu istehlak etmək zəhərlənməyə səbəb ola bilər.

## Zəhərlənmə əlamətlərinə diqqət yetirin!



Qida borusu və mədədə yanıqlara səbəb olan ərik toxumları mədədən bağırsaqlara keçərək 10 dəqiqə ərzində qələvi mühitdə həll olur. Həll yolu ilə ayrılan sianid bağırsaqlarda sürətlə udulduqdan sonra bütün toxumalara, xüsusən də qan hüceyrələrinə, dalağa, beyinə, ağciyərə və ürəyə yayılır və hüceyrələrin oksigen istifadəsinə mane olur, ağır klinik mənzərəyə səbəb olur. Zəhərlənmənin ilkin mərhələsində üzün qızarması, tərləmə, ürək döyüntüsü, sürətli nəfəs alma, ağızda ifrazatın çox olması, baş ağrısı, başgicəllənmə, qusma kimi əlamətlər meydana çıxır. Zəhərlənmənin ortaya çıxması ilə sürətlə inkişaf edən tənəffüs pozğunluğu, qan təzyiqinin düşməsi, huşunu itirmə, qızdırma, qıcolmalar, iflic, göyərmə və nəticədə tənəffüsün dayanması qaçılmaz olur. Nəfəs dayanana qədər dərinin rəngi qırmızıya çevrilir və işığa reaksiya yox olur.

## Xəstənin nəfəsindəki acı badam qoxusu müəyyənedici faktordur

Zəhərlənmə baş verərsə, şəxs təxirə salınmadan xəstəxanaya aparılmalıdır. Burada ailənin həkimə verdiyi məlumat çox önəmlidir. Bundan əlavə, qəfil kliniki pisləşmələr də zəhərlənmədən xəbər verir. Xüsusən də xəstənin nəfəsində acı badam qoxusunun gəlməsi, götürülən qan nümunəsinin qırmızı rəngdə olması, qanda şəkərin artması zəhərlənmədən xəbər verir.



## Nələrə diqqət edilməlidir?

- Ağızdan zəhərlənmə hallarında insanı heç vaxt qusdurmaq olmaz.

- Zəhərləyən qidanın nə olduğunu öyrənməyə cəhd edilməlidir.

- Xüsusilə uşaqların ailə üzvlərinin xəbəri olmadan meyvə toxumlarını çıxarıb yeməsi riski nəzərə alınmalı və lazımi tədbirlərlə qarşısı alınmalıdır.

- Toxum zəhərlənməsinin müalicəsində edilən ilk prosedur mədənin boşaldılmasıdır. Mədə yuyulur və bu proses sianid qoxusu yox olana qədər davam edir.

- Xəstədə baş verən klinik mənzərə üçün də xüsusi müalicələr tətbiq olunur.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov: "Meyvədən zəhərlənmə meyvə çürümüş olduqda, orada artıq kif və göbələklər əmələ gətirdikdə, yəni pis saxlanıldıqda baş verə bilər. Eləcə də meyvənin yetişdirilməsində pessisitlərdən, nitratlardan çox istifadə edildikdə (pessisitlər həşəratları qovmaq üçün səpilir) həmin pessisitlər səpiləndən sonra yağış yağmazsa, meyvə yuyulmadan yeyilərsə belə halda zəhərlənmələr baş verə bilər.

Eləcə də meyvələrin böyük olması üçün əgər nitratlardan istifadə olunubsa (onlar meyvələrin tərkibində olur) və müəyyən dozadan artıq istehlak olunarsa insanlar meyvələrdən də zəhərlənə bilər. Zəhərlənmənin diaqnozu çox mürəkkəbdir. Ola bilər ki insan elə bir qida yesin ki, hansısa bir meyvə ilə, hətta tərkibində gübrə olmayan meyvə ilə onu yedikdə o qidadan zəhərlənmə əmələ gəlsin. Bunların hamısını həkimlər müəyyən edə bilər və yaxud da heç müəyyən edə bilmirlər".



## Hansı meyvə zəhərlidir?



Sevdiyimiz yeməklərin bəzilərində ciddi sağlamlıq problemləri yaradan zəhərli maddələr ola bilər. Bunların arasında yemişan və kartofu nümunə göstərmək olar.

## Dünyanın ən zəhərli meyvəsi hansıdır?

Ackee və ya ackee alma Yamaykanın milli meyvəsi və eyni zamanda bütün dünyada ən zəhərli qidalardan biri kimi tanınır. Bu meyvənin tərkibində güclü qusmaya səbəb olan hipoqlikin kimi tanınan zəhər var. Yetişməmiş akeyi yemək ölümə səbəb ola və ya sizi komaya sala bilər.

## Zəhərlənmədən sonra üçün hansı meyvələr yaxşıdır?



Kaliumla zəngin olan banan qida zəhərlənməsi nəticəsində yaranan ürəkbulanma, qusma və ishal əlamətlərini azaltmağa kömək edir. Qatıq, sarımsaq və limon kimi antibakterial xüsusiyyətlərə malik qidalar qida zəhərlənməsinə səbəb olan bakteriyalarla mübarizə aparır.

## Müxtəlif xəstəliklər

Araşdırmalar göstərir ki, meyvə və tərəvəzlərdə olan kimyəvi zəhərlər, xüsusən də hormon pozğunluqları xərçəng xəstəliyinin yaranmasında böyük rol oynayır. Tədqiqatlar göstərir ki, pestisid qalıqları Alzheimer və Parkinson xəstəlikləri riskini artırır. Depressiya və böyrək xəstəliklərinə səbəb olduğunu göstərir. Xüsusən də toksinlər uşaqların orqanizmində daha uzun müddət qaldığından bu onlara ciddi zərər verə, hətta uşaqların beyin kimyasını poza bilər. Üstəlik, uşağın orqanizminə daxil olan kimyəvi maddənin nisbəti daha yüksəkdir.

Meyvə və tərəvəzlərdə olan zəhərli maddələr məhsulun növündən, istehsal olunduğu ölkə və ya bölgədən, istehsal üsulundan asılı olaraq dəyişir. Məsələn, ABŞ-da Çilidən alınan gavalı və Braziliyadan gətirilən manqoda ciddi kimyəvi maddələr var. Yaşıl lobya ABŞ-da ən çox pestisid ehtiva edən tərəvəz kimi müəyyən edilmişdir. Bizdə hələ ki, ictimaiyyətə açıqlanacaq belə hesablamalar və məlumatlar yoxdur. Mütəxəssislər orqanik şaftalı, naringi, nektarin, çiyələk, qovun, yaşıl lobya, şirin bibər, acı bibər, şirin kartof və yerkökü istehlak etməyimizi tövsiyə edir.



***Ayşən Vəli***

# Şirin pay: oğlan, yoxsa qız?..



## “Bakcell” ən geniş partnyor şəbəkəsinə malik debet kartını təqdim edir




Ölkənin ən böyük özəl mobil operatoru “Bakcell” ilk debet kartını - ”Bakcell Kart”ı təqdim edir. Ölkənin birinci bankı “Kapital Bank”la birgə əməkdaşlıq çərçivəsində ərsəyə gətirilən “Bakcell kart” ən geniş partnyor şəbəkəsinə malik debet kartdır.

### “Bakcell Kart”ın üstünlükləri nələrdir?

“Bakcell Kart” abunəçilərə partnyor mağazalardan 30%-dək keşbek qazandıracaq. Ödənişsiz təqdim olunacaq kartda köçürmə və nağdlaşdırma zamanı komissiya haqqı tutulmayacaq. Eyni zamanda, kart sahibləri xüsusi “Bakcell” kampaniyaları, həmçinin “Ulduzum Premium”un üstünlüklərindən faydalana biləcəklər. Bundan əlavə, ”Bakcell” tətbiqi üzərindən nömrənin balansı artırıldığı təqdirdə abunəçilərə xüsusi data (internet) bonuslar hədiyyə olunacaq.

### “Bakcell Kartı” necə əldə etmək olar?

“Bakcell Kart”ı üç valyutada AZN/USD/EUR olaraq ”Bakcell” tətbiqi üzərindən asanlıqla sifariş etmək olar. Debet kartı həm rəqəmsal, həm də fiziki formada təqdim olunur. Kart fiziki formada sifariş verildikdə müştərinin istəyinə uyğun olaraq ünvana çatdırıla və ya təyin edilən “Kapital Bank” filialından əldə edilə bilər. Aktiv “Bakcell” nömrəsi olan bütün abunəçilər “Bakcell Kartı” pulsuz şəkildə sifariş edə bilərlər. ”Bakcell Kart”ı ”Bakcell” tətbiqi üzərindən sifariş vermək üçün linkə keçid edin: https://onelink.to/bakcell

Qeyd edək ki, “Bakcell Kart” abunəçilərə innovativ məhsul və xidmətləri təqdim edən “Bakcell”in ilk fintex (maliyyə texnologiyası) məhsuldur. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək. Partnyor mağazaların siyahısı ilə bu link vasitəsilə tanış olmaq olar: https://birbank.az/partners

***Peyğəmbərimizin “Övladlarınız arasında fərq qoymayın, əgər qoymaq lazım gəlsəydi, mən qızlarıma üstünlük verərdim” kimi dəyərli kəlamı var. Lakin zaman-zaman şahidi oluruq ki, əksər insanlar nədənsə oğlan övladına qızdan üstün baxırlar. İnsanlar psixoloji amillərin təsiri ilə, xüsusilə ata nəslinin, ocağın davam etməsi arzusu ilə ailədə, heç olmasa, bir oğlan uşağının doğulmasını istəyirlər. Gözlədikləri oğlan uşağı doğulmadıqda ər arvadını məzəmmət edir, qadın da oğlan istədikləri halda qız olduğu üçün haqsız yerə özünü günahkar sayır.***





Quranın “Nəhl” surəsinin 58-59-cu ayələrində buyurulur ki, İslamdan əvvəlki cahillik dövründə ərəblərdən birinə “qızın oldu” xəbərini verdikdə o, həddindən artıq kədərlənər, üzü qəm-qüssədən qapqara qaralar, xalqdan gizlənməyə çalışar, yenicə doğulmuş qız uşağını utana-utana əlində tutar, yaxud da onu diri-diri torpağa basdırarmış.

Ölkəmizdə də hər zaman oğlan uşağı qızdan daha çox arzulanıb, bu, faktdır. Bir-birinin ardınca doğulan qız uşaqlarına görə dağılan ailələrin də sayı çox olub, oğlan övladı dünyaya gələnədək kəskin qayınana-gəlin münasibətləri də olub, hər kəs tərəfindən haqsız yerə qınanılan analarımız da olub. Hətta oğlan övladı ilə qız övladına münasibətdə kəskin fərq ötən əsrin əvvəllərində ölkəmizdə o dərəcədə özünü büruzə vermişdir ki, “Molla Nəsrəddin” jurnalında da həmin mövzuya münasibət bildirilmişdir.



Zəmanəmizdə də ümumiyyətlə, qız övladını istəməyən adamlar çoxdur. Yaxud da bir və ya iki qız övladı olan, növbətinin hökmən oğlan olması arzusu ilə yaşayır. Bizim cəmiyyətimizdə yeni ailə quran gənclərə, yaxud uşaq gözləyən gəlinlərə, övladı olmayan adamlara deyirlər: – “Allah sizə şirin bir pay versin”. Yaxşı bilsəm də ki, bu şirin pay deyiləndə nə nəzərdə tutulur, lakin hər dəfə bu sözləri yenidən eşidəndə onu ikrah hissi ilə qarşılamışam. Bu yaxınlarda belə bir söhbətlə yenidən qarşılaşdım. Orta yaşlı bir qadın uşaq gözləyən qadınla söhbətinin sonunda “Allah sənə şirin bir pay versin”,- deyirdi. Yenə də həmişəki ikrah hissi ilə soruşdum: - “Siz şirin pay deyəndə nəyi nəzərdə tutursunuz?”. Cavabımı belə aldım: – Oğlan uşağını deyirəm də... Mən də ona belə dedim: – Məgər qız acı paydır? Qadın tutuldu və “Yox, amma oğlan daha yaxşıdır axı. Oğlan düşmən çəpəridir, kökün daşıyıcısıdır”,- dedi.

İçimdə yeni bir ikrahın baş qaldırdığını hiss etdim və dedim: “Bəs o düşmən çəpəri dediyiniz övladları kim gətirir dünyaya? Acı pay hesab etdiyiniz qızlar gətirmirmi? Deyirsiniz ki, oğlan düşmən çəpəridir. Bizim qızlarımız da elə oğlanlarımız kimi yeri gələndə düşmən çəpəri olurlar. Onlar nə vaxt kişilərdən bir addım geri qalıblar ki?..”.

Qəribədir ki, bəlkə də kişilər oğlan övladını qadınlardan çox arzulayırlar. Ancaq bu istəklərini qadınlar qədər qabartmırlar. Özümüz qadın ola-ola hər kəsə “şirin pay” arzulayırıq. Lakin dərk etmək lazımdır ki, oğlan, yaxud qız olsun, fərqi yoxdur, ta ki sağlam, yaxşı, xeyirli övlad olsun. Elə bir adam tapılmaz ki, o, qonşuluğunda, qohumları arasında yaxşı və yaxud pis övlada rast gəlməmiş ola. Bu, qız da ola bilər, oğlan da. Bir ailə tanıyırdım, dörd oğlan övladı var idi. Ata vəfat etmişdi, ana isə tək yaşayırdı. Övladları uzaqda deyildilər, amma anadan ayrı yaşayırdılar. Günlərin birində ana vəfat edir, oğlanları iki gündən sonra xəbər tuturlar. Bunun əksi olaraq çox sədaqətli, ata-ana qədrini bilən övladlar var ki, xəstə, yaşlı valideynlərinə ömrünün sonunadək böyük hörmətlə yanaşır, onları əzizləyir, qayğılarını çəkirlər.

Oğlan övladına olan istəyi USM müayinələri son illərdə o həddə gətirib çatdırmışdır ki, 2011-2015-cü illərdə doğulan uşaqların statistik məlumatlarına görə hər 100 qıza 116 oğlan düşürdü. Bu nisbətə görə Azərbaycanın dünyada Çindən sonra ikinci yeri tutduğu qeyd olunurdu. Sosioloqlar hesablamışlar ki, belə davam edərsə, 2020-ci ildə doğulan hər dörd oğlana bir qız düşəcək. Bu isə demoqrafiyanın pozulması, gələcəkdə böyük problemlərin yaranacağına yol açılması deməkdir. 2017-ci ildə ölkəmizdə doğulan uşaqlarm 53,1 faizini oğlanlar, 46,9 faizini qızlar təşkil edib. 2020-ci ildə isə doğulan 126 571 uşağın 67 407 nəfəri oğlan, 59 164 nəfəri isə qız olub. 2023-cü ildə isə doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,1 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,9 faiz təşkil edib. Bu da balanslaşmada yenə də xeyli fərq var deməkdir.

Burada elimizin bir deyimini xatırlayıram: – “Qız qaldıqca qızıla dönər”. Lakin belə davam edərsə, deyəsən qız tapıb evlənmək oğlanlar üçün qızıl tapmağa bənzəyəcək. Düşünürəm ki, ailələrimizdə oğlan və ya qız övladları arasında ayrı-seçkilik olmamalıdır. Biz həyata özümüz gəlmədiyimiz kimi, alın yazımızı da özümüz müəyyənləşdirmirik. Hər kəsin övlad payı Ulu Yaradan tərəfindən göndərilir. Bir övlad üçün illərlə gözləyənlər var, bunu da unutmayaq. Həmin ailələr oğlan və ya qız olsun, bu barədə düşünmürlər, Allahdan tək bir övlad istəyirlər.

Cəmiyyətimizdə əsas meyarlardan biri ailədə qadınlarla yaxşı rəftar etməkdir ki, İslam dini bunu çox təkidlə buyurur. Belə ki, hətta qadınları Allahın əmanətləri kimi təqdim edərək onların hüquqları barəsində azacıq belə laqeydliyi, etinasızlığı, diqqətsizliyi ilahi əmanətə xəyanət hesab edir. Məhəmməd Peyğəmbər (s) qızı Fatiməni Əli ibn Əbutalibin (ə) evinə köçürən zaman “Ya Əli, qızım sənin əlində əmanətdir”, - buyurur.

Qız övladına daim üstünlük verən Məhəmməd peyğəmbər belə bir dəyərli fikir də söyləyirdi: “Kim iki qıza baxıb yetkinlik çağına qədər onları yetişdirərsə, Qiyamət günündə o, mənimlə belə olar” (Peyğəmbər belə deyib barmaqlarını bir-birinə keçirmişdir). Belə isə yenə də düşünüb-daşınıb cəmiyyətimizi oğlan və qız övladları arasında bu xoşagəlməz fərq qoymadan xilas etməliyik. Qoy ta ki evlərimizdən uşaq səsi gəlsin. İstər oğlan, istər qız olsun, fərqi yoxdur, hər ikisi şirin paydır. Allah payımızı versin.

***Mətanət Məmmədova***

# Rusiya Ukrayna cəbhəsində son vəziyyət: İkinci Çernobıl riski

***Ukrayna prezidenti Vladimir Zelenski dünənki açıqlamasında Ukrayna qüvvələrinin Kursk bölgəsinə başlayan hücumu barədə danışıb. Beləliklə o, Ukraynanın müharibəni Rusiya ərazisində apardığını deyib. Bu məqamda Zelenskinin daha əvvəlki açıqlaması yada düşür.***






Belə ki, o daha əvvəlki açıqlamasında “Rusiya da müharibəni hiss edəcək”, - demişdi. Nəticədə isə Ukrayna Rusiyaya lazımi cavab verə biləcəyini sübut edib.Rusiya isə dünən Ukrayna qoşunlarının Kurska daxil olmasının beşinci günündə Ukrayna ilə sərhəddəki üç bölgədə “antiterror əməliyyatı”na başlayıb. Rusiya bu əməliyyatla ilk olaraq 76 min insanı “təhlükəsiz bölgələrə” təxliyə etməyi planlaşdırır. Digər tərəfdən, Rusiyanın Dövlət Nüvə Enerjisi Korporasiyası “Rosatom”da Ukraynanın hücumu ilə əlaqədar sərhəddən 50 kilometrdən az məsafədə yerləşən atom elektrik stansiyalarının fəaliyyətini dayandırıb. “Rosatom”un verdiyi bəyanatda belə deyilir: “Ukrayna ordusunun irəliləməsi, Rusiyanın qərbində yerləşən Kursk Atom Elektrik Stansiyasına birbaşa təhlükə yaradır”. Onu da qeyd edək ki, müharibə bölgələrindəki atom elektrik stansiyaları kifayət qədər risk təşkil edir. Belə ki, qısa müddət öncə Rusiyanın işğalı altında olan Zaporojya Atom Elektrik Stansiyasında yanğın baş verib. Rəsmilər heç bir radiasiya sızıntısı aşkar etmədiklərini bildirərək, yanğına görə Ukrayna ordusunun hücumlarını günahlandırıb. Dərhal sonra Rusiya rəsmiləri yanğının söndürüldüyünü bildirib.Beynəlxalq Atom Enerjisi Agentliyi isə deyib ki, stansiyadakı müfəttişləri yanğın tüstüsünün qalxdığını təsdiqləyiblər, lakin onlar radiasiya sızması barədə heç nə deməyiblər. Ukrayna prezidenti Zelenski isə yanğının Rusiya tərəfindən törədildiyini iddia edib.

Qeyd edək ki, obyekt 2022-ci ildən Rusiya qoşunlarının və hakimiyyət orqanlarının nəzarəti altındadır. Zaporojya Atom Elektrik Stansiyası iki ildən artıqdır ki, elektrik enerjisi istehsal etmir və aprel ayından altı reaktorun hamısı bağlanıb.Müharibənin şiddətinə gəldikdə isə Rusiya tərəfinin verdiyi reaksiyalara baxsaq, çərşənbə axşamı Ukrayna ordusunun sərhədi keçərək Kursk bölgəsinə qədər bir neçə kilometr irəliləməyə nail olduğunu deyə bilərik. Ukrayna tərəfinin əks-hücumuna qarşı Rusiya hakimiyyəti şənbə gününə keçən gecə Ukrayna sərhədindəki Belqorod, Bryansk və Kursk vilayətlərində hərbi əməliyyatlar başladıb.Rusiya tərəfinin həyata keçirə biləcək tədbirlər isə hərəkətin məhdudlaşdırılması, nəqliyyat vasitələrinin ələ keçirilməsi, telefon danışıqlarının monitorinqi, qadağan olunmuş ərazilərin elan edilməsi, nəzarət-buraxılış məntəqələri və strateji infrastruktur ərazilərində təhlükəsizliyin artırılması daxildir.

***Zərdüşt Quluzadə***

# “Boz kardinal”a ittiham



*Gürcüstan müxalifəti yeni parlament uğrunda mübarizəyə başlayır*




Gürcüstanın “boz kardinalı” adlandırılan Bidzina İvanişvilinin əleyhdarları oliqarxın Rusiya ilə şəxsi əlaqələrini gücləndirdiyinə dair araşdırma dərc ediblər. Eyni zamanda onun “Gürcü arzusu” partiyası Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıdığı üçün şimal qonşusunu işğalçı adlandırır. İvanişvilinin tərəfdarları müxalifətin yalan danışdığını iddia edirlər, lakin onlar şərt qoyublar ki, hər şey doğru olsa belə, burada qanunsuz heç nə yoxdur. Bir qrup gürcü qeyri-kommersiya antikorrupsiya təşkilatı bildirib ki, “Gürcü arzusu”nun təsisçisinin Rusiyada ümumi dəyəri 14,7 milyon dollar olan mənzil və torpaq sahələri var, xüsusən də onun ailəsinin Moskvada və Moskva vilayətinin Odintsovo rayonunda iki evi var. Birincinin sahəsi 795,6 kvadratmetrdir. m, ikincisi isə 614,5 kv. m.Mülk İvanişvilinin həyat yoldaşına, oğluna və Rusiyanın “Aqua-Space” MMC-yə qeydiyyata alınıb. Müstəntiqlərin fikrincə, MMC Vircin adalarında qeydiyyatdan keçmiş Vanity Overseas Limited ofşor şirkəti vasitəsilə “Gürcü arzusu”nun liderinə məxsusdur. Eyni zamanda, 2011-ci ildə İvanişvili partiyasını yaradan zaman Rusiya şirkətlərindən və Rusiya pasportundan imtina edəcəyinə söz vermişdi. Oliqarx ailəsinin Rusiyadakı əmlakı ilk dəfə 2013-cü ildə əmlak bəyannaməsini doldurarkən məlum olub. Belə ki, 1997-1998-ci illərdə onun həyat yoldaşı ümumi sahəsi 12,1 min kvadratmetrdən çox olan üç torpaq sahəsi alıb. Lakin araşdırmada göstərildiyi kimi, 2021 və 2024-cü illərdə o, ümumi sahəsi 13,5 min



kvadratmetrdən çox olan daha üç torpaq sahəsi alıb.

Moskva vilayətindəki evə gəlincə, İvanişvilinin arvadı onu ərinin əmisi oğlundan alıb. Müstəntiqlər iddia edirlər ki, mənzil kirayə verilib və bunun sayəsində “Gürcü arzusu”nun başçısının ailəsi 2023-cü ildə 93 min dollar qazanıb. Eyni zamanda, müxalifət pulların sanksiyaya məruz qalmış Sberbank və VTB-dən keçməsinə diqqət yetirmək qərarına gəlib. “Gürcü Arzusu” partiyanın təsisçisinin Moskvadakı daşınmaz əmlakı ilə bağlı araşdırmanı yalan və manipulyasiya adlandırıb. Onlar həmçinin qeyd ediblər ki, bu doğru olsa belə, İvanişvili qanunu pozmayıb. “Sözügedən məqalə yalan məlumatlara əsaslanır və Bidzina İvanişvilinin artıq təsdiq etdiyi faktlar “sensasiya” və “qalmaqallı hekayə” kimi təqdim olunur. Fərziyyə səviyyəsində hər şey məqalədə yazıldığı kimi çıxsa belə, müəlliflərin istinad etdiyi bircə dənə də olsun yalançı hal qanun pozuntusunu ehtiva etmir - nə daşınmaz əmlakın əldə edilməsi, nə də onun mülkiyyəti”, - partiyanın bəyanatında deyilir.Öz növbəsində Tbilisi meri və “Gürcü arzusu”nun baş katibi Kaxa Kaladze bildirib ki, onun rəhbərinin son 20-25 ildə ümumiyyətlə Rusiya ilə heç bir əlaqəsi olmayıb. “Onun Rusiyanı tərk edib Gürcüstana gəldiyi ili dəqiq xatırlamıram. Ölkəmizdə Bidzina İvanişvili ancaq xeyriyyəçilik və xeyirxah işlərlə məşğul olub”, - Kaladze əmin edib. Onun fikrincə, müxalifət parlament seçkiləri öncəsi hakimiyyətdə olan partiyanın nüfuzunu sarsıtmaq üçün qəsdən dezinformasiya yayıb.Bununla belə, politoloq Nika Çitadze hesab edir ki, dərc olunan məlumatların seçicilərin seçimlərinə ciddi təsir göstərməsi ehtimalı azdır. “Gürcü Arzusu üzvləri artıq liderlərinin kim olduğunu bilirlər. Üstəlik, onu İvanişvilinin daxili və ya xarici siyasətinə görə deyil, onların rifahını təmin etdiyinə görə dəstəkləyirlər ki, bu da birbaşa hakimiyyətdə olması ilə bağlıdır. Bundan əlavə, “Gürcü Arzusu”nun sıravi seçicilərinin özəyini dövlət qulluqçuları (ölkə əhalisinin təxminən 10%-i) və dövlət müqavilələri alan şirkətlərin işçiləri təşkil edir. Bu kateqoriyalı gürcülər üçün şəxsi qazanc mücərrəd dövlət prioritetləri deyil, birinci yerdədir”, - Çitadze qeyd edib. Bununla yanaşı, ekspertin fikrincə, araşdırma partiyanın qərarsız seçiciləri cəlb etmək vəzifəsini çətinləşdirə bilər.

Rusiya hökuməti yanında Maliyyə Universitetinin eksperti Şota Aphaidze də informasiya təxribatının effektivliyinə şübhə ilə yanaşır. Xüsusilə, o xatırladıb ki, bütün Gürcüstan İvanişvilinin Rusiyadakı sahibkarlıq keçmişini yaxşı bilir və bunun sayəsində milyarder olub. “Əlbəttə, “Gürcü arzusu”nun Abxaziya və Cənubi Osetiyaya görə Rusiyaya münasibəti birmənalı deyil. Amma müxalifət kimi militarist əhval-ruhiyyə yoxdur. Hətta Moskvaya dost deyə bilməyənlər də onunla münasibətləri bərpa etmək istəyirlər”, - deyə Aphaidze yekunlaşdırıb.Gürcüstanın Rusiya ilə əla iqtisadi əlaqələri var, ona görə də İvanişvilinin Moskva ilə əlaqəsi heç kəsi şoka salmır. Üstəlik, bu halda söhbət işgüzar münasibətlərdən deyil, yaşayış sahəsindən gedir. Minlərlə gürcü müntəzəm olaraq Rusiya ilə Gürcüstan arasında səyahət edir, nəsə alıb satır. Deyə bilərik ki, İvanişvilinin yanaşmasını onun bir çox həmyerlisi bölüşür.

***AYSEL***

# Su qiyaməti: bizi nə gözləyir?



*Quraqlıq riski bütün dünyanı hədələyir, bəs biz su qıtlığına qarşı nə edə bilərik?*



***Əhalinin artması, həddindən artıq istehlak və israf, son illərdə qeyri-müntəzəm və qeyri-kafi yağıntılar səbəbindən dünya çox ciddi təhlükənin astanasındadır: quraqlıq. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 40%-i su qıtlığı ilə mübarizə aparır və 700 milyona qədər insan 2030-cu ilə qədər quraqlıq səbəbindən miqrasiya riski altındadır. Bu, həm də qida çatışmazlığı və epidemiyalar kimi bir çox risklər yaradacaq.***



## Təhlükə qaçılmaz olacaq

Dünyada hər il təxminən 55 milyon insan quraqlıqdan əziyyət çəkir. Qeyri-adekvat su ehtiyatları heyvandarlıq və kənd təsərrüfatı sektorlarına zərər vurmaqla yanaşı, insanların əsas dolanışıq vasitələrini də risk altına qoyur. O, epidemik xəstəliklər, məcburi köçlər və ərzaq qıtlığı kimi təhlükələr yaradaraq bəşəriyyətin həyatını təhlükəyə atır. Üstəlik, Yerdəki suyun yalnız 2,5 faizi şirin sudur. Dünyadakı şirin su qaynaqlarının yalnız 10 faizi əlçatandır. Qalan şirin su ehtiyatları yeraltı sularda və buzlaqlarda mühafizə olunur. Dünyada 663 milyon insanın adekvat su ehtiyatlarına çıxışı yoxdur, hər gün 5 yaşınadək 800 uşaq qeyri-adekvat su, kanalizasiya və pis gigiyena şəraitinin yaratdığı ishaldan ölür. Dünyada qadınlar və qızlar evlərinə su daşımaq üçün ümumilikdə 200 milyon saat sərf edirlər.

Əhalinin artımı, sənaye və enerji sektorlarında artan tələb və istehlak nisbəti ilə birlikdə məişət sularından istifadənin artması qarşıdakı quraqlıq riskini daha aydın göstərdi. Son bir neçə onillikdə suya tələbatın artması dünya əhalisinin artımından iki dəfə çox artıb. 2040-cı ilə qədər bu tələbatın 4,350 milyard kubmetrə çatacağı bildirilir. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, növbəti 30 il ərzində qlobal sudan istifadənin ildə təxminən 1% artacağı gözlənilir.

## Biz nə edə bilərik?

Mövcud vəziyyətə nəzər saldıqda aydın olur ki, təcili tədbirlər görməliyik. Bu gün hamımız sudan istifadə, istehlak və idarə etmə üsulumuzu dəyişdirməklə gələcəyimizi təminat altına ala bilərik. Lakin bunlardan əlavə təsir zonamızı genişləndirmək üçün qlobal əməkdaşlıqlar etməyimiz vacibdir. Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə hər il martın 22-də keçirilən Ümumdünya Su Günü qeyd olunması bunun üçün yaxşı fürsətdir. Lakin bu mübarizəmiz 1 gündə deyil, ilin 365 günündə davam etməlidir.

Dayanıqlı İnkişaf Məqsədlərinin 6-cısı olan "Təmiz Su və Kanalizasiya" maddəsi 2030-cu ilə qədər hər kəsin təhlükəsiz və əlçatan içməli suya çıxışını təmin etmək məqsədi daşıyır. Birləşmiş Millətlər Təşkilatına görə, bu məqsədə çatmaq üçün hökumətlər orta hesabla dörd dəfə daha sürətli işləməlidir. Ancaq bu, təkbaşına həll edə biləcəkləri bir vəziyyət deyil. Fərdi və institusional olaraq mübarizəni gücləndirməliyik. Məhz buna görə də kampaniyaların builki mövzusu "tərəfdaşlıq və əməkdaşlıq vasitəsilə dəyişikliyi sürətləndirmək" kimi müəyyən edilib.

Yeraltı su ehtiyatlarımız yanlış kənd təsərrüfatı təcrübələri və iqlim dəyişikliyinin təsirləri səbəbindən sürətlə tükənir. İqlim dəyişikliyi su ehtiyatlarına çıxışa, su ehtiyatlarının səmərəliliyinə və miqdarına birbaşa mənfi təsir göstərir. İqlim dəyişikliyi səbəbindən 2000-ci ildən bəri sellə bağlı fəlakətlər 134 faiz artdığı halda, quraqlıqların sayı və müddəti əvvəlki 10 illə müqayisədə 29 faiz artıb. Son 50 ildə qlobal istiləşmənin 90 faizindən çoxu okeanlarda baş verib. Dəniz suyunun temperaturunun artması və buzlaqların əriməsi ilə əlaqədar növbəti 2000 ildə dəniz suyunun hündürlüyünün 1,5 dərəcə artımla 2-3 metr, 5 dərəcə artımla isə 19-22 metrə çatacağı proqnozlaşdırılır. Bu, o deməkdir ki, dünyada bir çox sahilyanı yaşayış məntəqələri su altında qalacaq.

## Milli sərvət – içməli su

Dünyada su ehtiyatları sonsuz deyil, sürətlə tükənir. Xüsusilə, 20-ci əsrin ikinci yarısından sonra əhalinin sürətlə artması, qidaya ehtiyacın artması, cəmiyyətin sənayeləşməsi, çirklənmənin artması və iqlim dəyişikliyinin təsiri su ehtiyatlarına təzyiq göstərir. Əhali sürətlə artdıqca, təmiz su ehtiyatları sabit qaldıqda və hətta getdikcə daha çox çirkləndikcə su problemi daha da aktuallaşır. Üstəlik, gündəlik istifadə etdiyimiz suyun dəyəri bu gün də yaxşı qiymətləndirilmir. Mövcud sudan kifayət qədər israfçılıqla istifadə olunur. Yalnış istehlak vərdişləri dünyanı gündən-günə su böhranına yaxınlaşdırır.

Dünyanın 70 faizi su ilə örtülüdür, lakin içməli su ehtiyatları bütün suyun yalnız 1 faizini təşkil edir. Bununla belə, mövcud içməli su mənbəyinin əlçatanlığı ciddi problemdir. Su ehtiyatlarının kəmiyyət və keyfiyyətcə qeyri-kafi və əlçatmaz olması təbiətə, cəmiyyətə və fəaliyyət göstərən iqtisadiyyatlara birbaşa təsir göstərir. Qlobal suya tələbat artır. Sosial, iqtisadi və ekoloji sahələrdə su problemi bəşəriyyət üçün əsas təhlükələrdən biri hesab olunur. Həyati əhəmiyyətinə görə "Su iqtisadi sərvət olmamalıdır" fikri səsləndirilsə də, əslində içməli su indi ən çox ticari söz-söhbət yaradan təbii sərvətdir. Dünya ölkələri içməli suya çıxış, əlçatanlıq məsələsində bir-birindən gizlin tədbirlər görməkdir. Artıq qızıl yataqları, neft quyuları qədər içməli su ehtiyatları da milli sərvət hesab edilir.

## Hətta biz də

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanmışdır. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Son 1 ildə Azərbaycanın su ehtiyatları minimuma düşüb. Həmişə bol sululuğu ilə məşhur olan Kür və digər kiçik çaylar quruyur. Dünyada gedən qlobal istiləşmə bizdən də yan keçmir, içməli su mənbələrimiz quruyur. Təəssüf ki, bizdən fərqli olaraq, bir çox dünya ölkələri bu həyati təhlükə ilə bağlı ciddi tədbirlər gördü. Azərbaycan su ehtiyatlarının az olduğu ölkələrdən biridir, ölkənin ümumi su ehtiyatının 70 faizi xarici mənbələr hesabına formalaşdığından qlobal problem başlayanda həmin 70 faiz su da bizə çatmayacaq. Transsərhəd çaylarından gələn suyu həmin ölkələr istifadə edəcək.

Kürdə suyun səviyyəsinin aşağı düşməsi məsələsinə gəlincə, bunun bir çox səbəbləri var. Onlardan biri Kür çayının mənbəyi olan Türkiyədə bir neçə su anbarının tikilməsidir. Mənbə sularının böyük hissəsi orada toplanılır və çaya az gəlir. İkincisi isə, Kürə axan kiçik çaylar ekoloji səbəbdən quruyub. Məsələn, meşələr qırılıb, qum, çınqıl daşları daşınılıb. Həmin çaylar lilli suyu Kürə gətirir və çayın aşağı axarlarında onun dibi yuxarı qalxır. Məhz ona görə də keçən il əksinə olaraq, dəniz suyu Kürə axmağa başladı. Üstəlik, Kür çayına təzyiq artıb. Ondan suvarmada nəzarətsiz və məhdudiyyətsiz istifadə edilir. Bir çox böyük plantasiyalar suvarma üçün Kür çayının suyunu normadan artıq götürürlər.



Qeyd edək ki, Azərbaycanın 30 faiz su ehtiyatı Qarabağda yerləşir. Həmin su ehtiyatlarından səmərəli istifadə edilsə, ətraf regionlar da vəziyyətdən çıxa bilər. Amma bu, kortəbii yox, sistemli, elmi şəkildə əsaslandırılmış işlər vasitəsi ilə həyata keçirilməlidir. Suyun düzgün paylaşdırılması, bölüşdürülməsi, su mənbələrinə normal təzyiq verilməsi kimi məsələlər nəzərə alınmalıdır. Yəni bir tərəfdə daha çox su istismar edib, digər tərəfdə qıtlıq yaratmamaq üçün düzgün kanalların çəkilməsi, alternativ mənbələrdən istifadə etmək lazımdır.

***Lalə Mehralı***




# Zəngəzur dəhlizi nə zaman açılacaq?




***Zəngəzur dəhlizinin açılışı ilə bağlı dəqiq bir tarix vermək çətin olsa da, bu mövzu hazırda Azərbaycan və Ermənistan arasında regional nəqliyyat və kommunikasiya yollarının açılması üzrə danışıqların və beynəlxalq əlaqələrin mərkəzindədir. Zəngəzur dəhlizi Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirə, regional iqtisadiyyata və ticarətə müsbət təsir göstərə bilər.***

Bu gərgin prosesin fonunda Zəngəzur dəhlizi nə zaman açıla bilər?Mövzu ilə bağlı politoloq Elşad Həsənov SİA-ya açıqlamasında deyib ki, Zəngəzur dəhlizinin açılması əsasən, Azərbaycan və Ermənistan arasında olan siyasi və diplomatik danışıqlardan asılıdır: "2020-ci ilin noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanan bəyanatda nəzərdə tutulmuş 10-cu maddədir. Bu maddə digər maddələr kimi Ermənistan tərəfindən yerinə yetirilməkdən boyun qaçırıldı. Buna Fransanın apardığı siyasət səbəb oldu. Nəticədə, Ermənistanın Baş naziri imza atdığı sənətdən imtina etdi".Politoloqun sözlərinə görə, Ermənistan tərəfi bildirib ki, onların ərazisindən kecən yola Rusiyanın Federal Təhlükəsizlik Xidməti nəzarət etməməlidir. Hətta Paşinyan Ermənistanın Təhlükəsizlik Nazirliyinin nəzdində yeni idarə yaratdı ki, həmin yola nəzarət etsin: "Cənubi Qafqazda sabitliyin olmasını istəməyən qüvvələr Ermənistanı bu yolun açılmasına imkan vermir. Hətta qonşu İran bildirir ki, həmin dəhlizin acılması İran üçün qırmızı xətdir".E.Həsənov hesab edir ki, Zəngəzur dəhlizi mütləq açılacaq: "Çünki yolun açılması təkcə Azərbaycanın istəyi deyil, bu həm də Türkiyənin, Rusiyanın, Çinin, Hindistanın istəyi, tələbidir. Hətta bu dəhlizin açılmasını ABŞ də istəyir. Çünki Ermənistan dəhlizin açılmasına icazə verməsə, Azərbaycan alternativ olaraq İran ərazisindən Naxçıvana yeni yol çəkəcək. Bunun üçün müqavilə imzalayaraq körpülərin salınmasına başlayıb. Artıq həmin proyekt başa catmaq üzrədir.

ABŞ və Avropa İttifaqı təcili olaraq yolun İran üzərindən deyil, Ermənistan üzərindən açılmasının vacib olduğunu bildirib".Politolqun sözlərinə görə, Azərbaycan öz işini davam etdirir. Aparılan diplomatik danışıqlar nəticəsində Türkiyənin nəqliyyat naziri Zəngəzur dəhlizinin 2028-ci ildə açılacağını deyib. Dəhlizin Ermənistandan keçən hissəsi cəmi 43 kilometirdir. Yolun tikintisi 1-2 ilə başa çatacaq. O, Dünya Bankının kredit verəcəyini də diqqətə çatdırıb: "Bu günlərdə ABŞ dövlət katibinin müavini Ceyms O'Brayn Orta Asiya ölkələrindən danışarkən bildirib ki, bu ölkələrin böyük yeraltı və yerüstü sərvətləri var. Həmin sərvətlərin dünya bazarına çıxarılması Çindən və Rusiyadan yan keçərək Azərbaycan və Ermənistan üzərindən daşınmalıdır. Həmin marşurut yalnız Zəngəzur dəhlizidir. Bu mənada hesab edirəm ki, ABŞ-ın sözü Ermənistanda keçərlidir. Hazırda manəə İrandır. Düşünürəm, İran böyük güclərin təsiri altında öz inadından əl çəkəcək və 2028-ci ilə həmin dəhliz istifadəyə veriləcək".

***Gülnarə Nəriman***

# Ermənistan təcrid yolunu seçib, amma...



*Bakı həm səbirlə gözləməyi, həm də uzun və dərin oyun qurmağı kifayət qədər əla bacarır...*

Əslində, Ermənistanın dəhliz məsələsindəki oyunları bir həqiqəti əks etdirir - bu, artıq həmin yol uzunmüddətli kursa söykənir. Daha dəqiq desək, baş verənlərin Azərbaycan üçün istisi-soyuğu yoxdur. Çünki Bakının nəinki "b", eləcə də "c" və s. ehtiyat planları həmişə mövcud olub. Beləliklə...

**İran faktoru qüvvədədir...**

Quru sərhədlərimizlə bağlı hələ bir neçə il əvvəl qonşu İranla məlum memorandum imzalamışdı. Yəni Tehranla, eyni zamanda konsensus əldə olunub ki, "Şimal-Cənub" dəhlizi (həm avtomobil, həm də dəmir yolu) Azərbaycandan keçəcək. Üstəlik, qeyd edilənlərlə paralel olaraq, müasir Zəngilan-Gəncə avtomobil yolu tikilir ki, bu da ermənilərin öz ərazilərinin tranzit rentabelliyi ilə bağlı ümidlərini dəfn edir.

**Gürcüstan faktoru da geri qalmır**

Artıq digər qonşumuz Gürcüstan da bu layihədə start götürüb. Rəsmi Tiflis vasitəsilə mövcud dəhlizin modernləşdirilməsi və Araz çayının cənub sahili boyunca yeni dəhlizin tikintisi gedir.

Beləliklə, Azərbaycan bütün yükdaşımaları - həm avtomobil, həm də dəmir yolu reallığında öz üzərinə götürüb və rəsmi İrəvanın utopik, yaxud xəyali "dünya kəsişməsi" adlı psevdolayihəsinin üzərindən çarpaz xətlər çəkilir.

**Azərbaycan faktoru isə davam edir!**

Artıq bu gün dünyaya öz sözünü deyən və icra edən (!) rəsmi Bakı İrəvanın və onun havadarlarının qarşısında oyunu elə qurur ki, hazırda Azərbaycanın guya Zəngəzur dəhlizindən "imtina etməsinə" (əslində, bu məsələni müəyyən qədər təxirə salmasına) atlanıb-düşən Ermənistan axır-əvvəl özü-öz dizləri ilə ayaqlarımızın altına sürünərək həmin dəhlizin açılması üçün bizə yalvaracaq. Fəqət, bu dəfə hər şey əvvəlki kimi olmayacaq - qiymət də fərqli olacaq. Necə ki, Azərbaycanın 30 illik danışıqlar prosesində irəli sürdüyü təklifləri Ermənistan qəbul etmirdisə və nəticəsi də dünyaya bəllidir, bu dəfə də belə olacaq.

***Afət Tahirqızı***

***P.S. Bakı həm səbirlə gözləməyi, həm də uzun və dərin oyun qurmağı kifayət qədər əla bacarır...***

# Hipermarketlərdə satıcılar niyə yoxa çıxır?

AYDINLIQ GƏTİRİLDİ

"Artıq yay aylarında hipermarketlərdə insanlar satıcı qıtlığından gileylənirlər. Bu da şübhəsiz ki hipermarketlərin menecment işini düzgün təşkil etməmələri ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib. Üzeyir Şəfiyev sözlərinə belə davam edib: "Yəni, məkan böyük olsa da ancaq orada xidmət səviyyəsi çox aşağıdır. Bu da şübhəsiz ki insanların haqlı narazılığına səbəb olur. Bunun üçün lazımdır həmin marketlərdə bir xidmətə münasibəti öyrədən dəftərlər olsun, və yaxud da könüllülərdən ibarət olan bir qrup fəaliyyət göstərməlidir ki, orta xidmət səviyyəsini ölçmək üçün istifadə olunsun. Çünki hipermarketlərdə gerçəkdən məkanın böyüklüyünə baxmayaraq insanlara xidmət səviyyəsi, alıcılara xidmət səviyyəsi çox aşağı səviyyədədir. Bəzən də qeyri-məmnunluğa görə alıcılar daxil olur və lazımi sorğulara cavab almadığına görə və düzgün yönləndirmə olmadığına görə marketləri tərk edir. Beləliklə də bu onlar üçün diskomfort yaradır.

Ümumiyyətlə menecment işinin təşkili hipermarketlərdə xüsusi diqqətə alınmalıdır. Əslində bu onların özünün reputasiyası üçün lazımdır, reputasiyası zədələnməsin deyə onlar xidmət səviyyəsini artırmalıdır. Eyni zamanda marketlərdə növbəli satıcı heyəti fəaliyyət göstərməlidir və satıcı və alıcı münasibətlərinin xidmət səviyyəsini ölçmək üçün də hesab edirəm ki, hər bir hipermarketin tərkibində ictimai rəyi öyrənən mərkəzlər olmalıdır. İnsanların rəylərini, şikayətlərini, tövsiyələrini bilən bir mərkəz olmalı və bu mərkəz həmin hipermarketlərin menecment işinin təşkilinə töhfə verə, menecment işini yönləndirə bilər. Beləliklə də satıcı məmnunluğu təmin oluna bilər".

***Ayşən Vəli***






Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Azərbaycan regionun geosiyasətini, geoiqtisadiyyatını quran əsas dövlətlərdən biridir"

***Tanınmış iqtisadçı və politoloq Aleksandr Razuvayev "Moskva-Baku" portalına müsahibəsində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin yeni qarşılıqlı fəaliyyət formatında birləşməsinin səbəblərindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***




**- Astanada Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü çərçivəsində Azərbaycan liderinin iştirakı ilə "Mərkəzi Asiya və Azərbaycan" formatında görüş keçirilib. Sizcə, bu format niyə yaranıb və nə üçün həm Bakı, həm də Mərkəzi Asiya dövlətləri üçün maraqlıdır?**

-Azərbaycan ötən ilin sentyabrında öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdikdən sonra müxtəlif regionlarda, xüsusən də qonşuları ilə əlaqələri ardıcıl olaraq möhkəmləndirməyə və inkişaf etdirməyə başlayıb. Bu, qonşularla möhkəm, konstruktiv münasibətlərin, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, mövcud qarşılıqlı potensialdan istifadə edilməsindən ibarət müdrik strateji yanaşmadır. Bakı, xüsusən bu gün artan beynəlxalq və regional tendensiyalar fonunda öz ətrafında sülh və mehriban qonşuluq məkanı qurmaq taktikasını seçib.

Niyə son illərdə bu mümkün olub? Çünki Azərbaycanın onilliklər boyu xarici siyasətində əsas diqqəti həllinə yönəltməli olduğu problem- Qarabağ münaqişəsi və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı problemi nəhayət həll olundu. İndi də Azərbaycan diqqətini dünyanın müxtəlif yerlərində öz mövqelərini möhkəmləndirməyə, beynəlxalq statusunu yüksəltməyə və düzgün aktorlarla əlaqələrini gücləndirməyə yönəldə bilər. Xüsusilə, qonşu region kimi Mərkəzi Asiya dövlətləri ilə əlaqələri gücləndirmək. Bu isə Bakı üçün strateji regiondur. Yeri gəlmişkən, Azərbaycan 2 il əvvəl yaxın qonşusu olan Rusiya ilə də Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamə imzalayıb.

Təkcə son 2 il ərzində Azərbaycan Prezidentinin bu gün (dünən- red.) Astanada keçirdiyi müşavirədə qeyd etdiyi kimi, o, Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər edib. Eyni zamanda, Mərkəzi Asiya dövlətlərinin rəhbərləri 2 il ərzində Azərbaycana 15 dəfə səfər ediblər. Rəqəmlər hər şeyi deyir.

Bu "Mərkəzi Asiya+Azərbaycan" formatı niyə formalaşıb? Ərazi bütövlüyünün bərpasından və əraziləri qaytarıldıqdan sonra Azərbaycanın Cənubi Qafqaz regionunda və ətraf ərazidə statusu xeyli yüksəlmişdir. Bu fakt Qarabağ münaqişəsində həmişə Azərbaycanın tərəfində olan Mərkəzi Asiya ölkələri tərəfindən dəstək və böyük hörmətlə qarşılanıb.

Və biz görürük ki, bu dövlətlər işğaldan azad edilmiş ərazilərin bərpasında fəal iştirak edir, Özbəkistan və Qazaxıstanın dövlət vəsaiti hesabına artıq Qarabağda məktəblər tikilib; Qırğızıstan da dövlət vəsaiti ilə Qarabağda tikinti aparır. Bu ölkələrin rəhbərləri artıq Qarabağa səfər ediblər. Bu yanaşma həm də Azərbaycana hörmətin təzahürüdür.

Azərbaycan da son illərdə Mərkəzi Asiya ölkələrinin əksəriyyətini təşkil edən türk dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsi siyasətini inkişaf etdirməyə başlayıb. Türk dövlətlərində İlham Əliyevə ölkəsinin ərazi bütövlüyünü bərpa edən, ölkəsi üçün çox çətin problemi həll edən lider kimi böyük hörmətlə yanaşırlar. Türk dövlətləri öz mövqelərini gücləndirmək üçün bu gün Türk Dövlətləri Təşkilatı institutunu gücləndirirlər. Və təbii ki, Azərbaycanın bu cəmiyyətdəki rolu getdikcə artır.




Xatırladığımız kimi, İlham Əliyev bu yaxınlarda Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi zirvə toplantısında, yeri gəlmişkən, Şuşada işğaldan azad edilmiş torpaqlarda birbaşa bildirmişdi ki, bu təşkilat qlobal miqyasda güc mərkəzlərindən birinə çevrilməlidir. İlham Əliyev belə ciddi təşəbbüslə Azərbaycanı geosiyasi prosesləri quran ölkə kimi mövqelendirir. Elə həmin sammitdə mövqeyini təkcə sözlə deyil, həm də əməli ilə möhkəmləndirirmiş kimi, Türk Dövlətləri Təşkilatının hazırkı strukturunun qarşıya qoyulan məqsədlərə cavab vermədiyini, büdcənin onların həyata keçirilməsi üçün yetərli olmadığını bildirdi. Azərbaycan Katibliyin hesabına iki milyon ABŞ dolları köçürüb. Bu, bir daha təsdiqləyir ki, Bakı hansısa istiqamətin inkişafı ilə məşğuldursa, bunu ciddi və konkret edir.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xatırlayaq, o yaradıb. Eyni şey indi Türk Dövlətləri Təşkilatı ilə də baş verir. Azərbaycan təşəbbüslər irəli sürür. Artıq Türk İnvestisiya Fondu yaradılıb və Azərbaycandan keçməklə Xəzər dənizi vasitəsilə Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutunun yaradılmasını nəzərdə tutan Rəqəmsal İpək Yolu layihəsi nəzərdən keçirilir.

Hələ bir qədər əvvəl İlham Əliyev qeyd edib ki, Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin müdafiə sənayesi sahəsində əməkdaşlıq üçün yol xəritəsi lazımdır, çünki onun sözlərinə görə, dünyada mövcud vəziyyəti proqnozlaşdırmaq mümkün deyil. Bu gün (dünən- red.) Astanada keçirilən görüşdə Azərbaycan lideri analoji müraciətlə çıxış edib. O bildirib ki, dünyada artan təhdid və çağırışlar Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir.

Azərbaycan və Mərkəzi Asiya dövlətlərini coğrafiya və xeyli sayda birgə layihələr birləşdirir. Bu, Azərbaycan və Mərkəzi Asiya zaman Bakı sözün əsl mənasında bu strukturu sağlamlaşdırdı-müstəqil şəkildə bu təşkilatın inkişafına və inkişaf etməkdə olan dövlətlərə yardıma pul ayırıb, bu strukturun institutunu gücləndirib, onun daxilində müxtəlif bölmələr vasitəsilə Avropaya yüklərin nəqlini nəzərdə tutan Orta Nəqliyyat Dəhlizidir. Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan da alternativ enerji istiqamətini birgə inkişaf etdirmək barədə razılığa gəliblər. Elektrik enerjisi Avropaya ixrac olunacaq. Azərbaycan və Mərkəzi Asiya ölkələri neft-qaz sahəsində də əməkdaşlığı inkişaf etdirir.

Bu gün Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın da daxil olduğu Şanxay Əməkdaşlıq Təşkilatı getdikcə aktuallaşır. İyulda Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi statusu almaq üçün müraciət etdiyi məlum olub.

Bütün Mərkəzi Asiya dövlətləri, eləcə də Azərbaycan bu gün Çinlə yaxınlaşır, çünki onun böyük iqtisadi və digər potensialı var. Azərbaycan bu yaxınlarda Çin ilə münasibətlərini strateji əməkdaşlığa yüksəldib.

Şərqlə Qərb arasında yerləşən Azərbaycan strateji coğrafi mövqeyə malikdir; O, Cənubi Qafqaz və Xəzər regionunda gedən bir çox proseslərin təşəbbüskarıdır ki, bu da Mərkəzi Asiya regionuna ötürülür. Və bütün bu regionlarda Azərbaycan əsas rol oynayır, fəaldır və regionların geosiyasətini, geoiqtisadiyyatını quran əsas dövlətlərdən biridir.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
13 avqust
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ən pis xərçəngdən qoruyan 4 möcüzəli məhsul



*Ən pis xərçəngdən - melanomadan xilas olmaq üçün rasiona hansı dörd qidanın daxil edilməli olduğu məlum olub. Bu tövsiyələri həkimlər verib.*

Həkimlər izah ediblər ki, melanoma dəri xərçənginin ən təhlükəli formasıdır: şiş böyüyür və tez metastaz verir və ən gözlənilməz yerlərə - gözlərdə, dırnaqların altında. Ancaq düzgün qidalansanız, onun inkişafının qarşısını almaq ehtimalı daha yüksəkdir. Həkimlərin fikrincə, əsas odur ki, A vitamininin xəbərçisi olan beta-karotin olan qidalardan istifadə edin. Xüsusilə, oftalmoloq Mixail Konovalov qeyd edir ki, qida rasionunuza qırmızı bolqar bibəri, şirin kartof, yerkökü və balqabağı daxil etməlisiniz.

Onların tərkibindəki beta-karoten antioksidant kimi fəaliyyət göstərir və həmçinin dərini ultrabənövşəyi şüaların zərərli təsirlərindən qoruyur. Həkim etiraf edib ki, təbii, xərçəngi müalicə etmirlər, lakin bu məhsullar onun inkişafına imkan vermir. Eyni zamanda, həkim Yelena Malışeva, beta-karotinin gündəlik tələbatının yalnız 40 qram qırmızı bibər və ya 100 qram şirin kartofda olduğunu aydınlaşdırıb. 100 qram balqabaq və yerkökü isə orqanizmin bir gün ərzində ehtiyac duyduğundan bir neçə dəfə çox ehtiva edir.//Lent.az

# Bu futbolçu "Barselona"dan ayrıldığını açıqladı

**Sergi Roberto İspaniyanın "Barselona" futbol klubundan ayrılıb. Bu barədə o, X sosial şəbəkəsindəki səhifəsində məlumat verib. "Əziz "Barselona" azarkeşləri, birlikdə getdiyimiz yola görə sizə təşəkkür etməyin vaxtıdır", - deyə Roberto bildirib. 32 yaşlı futbolçu 2010-cu ildən "Barselona"nın əsas komandasında çıxış edir. "Barselona" ilə o, yeddiqat İspaniya çempionu, 6 dəfə İspaniya kubokunun və 2 dəfə Çempionlar Liqasının qalibi olub.**



# Varşavadan Nyu-Yorka uçan təyyarədə bomba həyəcanı...

*Varşavadan Nyu-Yorka uçan Polşanın LOT aviaşirkətinə məxsus təyyarə göyərtəsində bomba olması barədə yayılan xəbərə görə geri qayıtmağa məcbur olub. Bu barədə aviadaşıyıcının mətbuat xidməti məlumat yayıb.*



"Təyyarənin göyərtəsində potensial təhlükə barədə siqnal aldıqdan sonra kapitan prosedura uyğun olaraq Varşavaya qayıtmaq qərarına gəlib", -deyə məlumatda bildirilib. Polşa paytaxtına eniş etdikdən sonra bütün sərnişinlər təyyarədən təxliyə edilib, uçuş isə təxirə salınıb. Hadisə ilə bağlı aparılan araşdırmalar nəticəsində polis 8 nəfəri saxlayıb, onlara "təyyarədə bombanın olması barədə yalan xəbərdarlıq etmək" ittihamı irəli sürülüb.

# Misir piramidalarının sirri açıldı



Fransız alimləri qədim misirlilərin ağır yükləri necə böyük hündürlüklərə qaldıra bildiklərini izah edən bir nəzəriyyə irəli sürüblər. Bu barədə "Plos One" jurnalında məqalə yer alıb. Piramidaların birində yerləşən böyük şaquli şaftın olması alimləri çaşdırıb. Yeni araşdırmalara görə, mil bir neçə yüz kiloqram ağırlığında blokların qaldırılması üçün hidravlik sistemin bir hissəsi ola bilər. Materialda deyilir ki, belə bir sistemin effektiv işləməsi üçün böyük miqdarda su tələb olunur. Alimlər cəsarətli bir fərziyyə irəli sürüblər ki, Coser məqbərəsinin yanındakı tikili əvvəllər düşünüldüyü kimi hərbi obyekt deyil, su anbarıdır.

Elmi araşdırmalar göstərir ki, qədim Saharada çoxlu miqdarda yağış var idi və bu, inşaatçılara hidravlik lifti idarə etmək üçün kifayət qədər su ehtiyatına malik olmağa imkan verə bilərdi. Beləliklə, alimlər qədim zamanlarda ucaldılmış nəhəng tikililərin tikintisində hidravlikanın istifadəsini öyrənməkdə yeni istiqamət tapmış olublar.

## BAŞSAĞLIĞI

SƏS Media Qrupu adından Bəhruz Quliyev İnam Hacıyevə anası Nəhayət xanımın vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlı verir.

**Allah Rəhmət eləsin!**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**